RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 5 (8598) BAZAR, 10 yanvar 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

**"Bu qələbə Azərbaycan tarixində əbədi qalacaqdır. Həm döyüş meydanında, həm danışıqlar masası arxasında biz istədiyimizə nail ola bildik"**

**İlham ƏLİYEV**

**"Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq"**

**İlham ƏLİYEV**



# MÜHARİBƏNİN AZƏRBAYCAN MODELİ

**"Bu gün bir çox ölkələrdə, inkişaf etmiş ölkələrdə bizim təcrübəmiz öyrənilir. Bu gün bu məsələ ilə məşğul olan bir çox ekspertlər qeyd edirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb. XXI əsrdə ilk dəfə olaraq bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edilib"**

**İlham ƏLİYEV**

*Sovetlər İttifaqının tərkibində olduğumuz yetmiş il ərzində biz istədiyimiz kimi inkişaf etməmişik!*

*Bizi "inkişaf" etdiriblər.*

*Qazandığımızdan qat-qat azını xərcləmişik.*

*Çünki SSRİ dövründə qazanılanın hamısı "ümumittifaq fondu" deyilən bir yerə yığılar, sonra ordan bölünərdi!*

***Kimə nə düşərdi düşərdi...***

**Qırmızı imperiyanın qoyduğu qayda beləydi!**

Kimsənin onu pozmağa cürəti və gücü çatmazdı!

Müstəqil xarici siyasət yürüdə bilməzdik.

Bundan ötrü SSRİ Xarici İşlər Nazirliyi vardı.

Milli maraqlardan söhbət gedə bilməzdi.

*"Sovet xalqı" adlandırılan bir toplumun maraqları vardı, o da SSRİ-nin maraqları demək idi.*

*Dövlət də vahid idi, "millət" də və onların mərkəzində Rusiyanın maraqları dayanırdı.*

*Hamı da ona "böyük qardaş" deyərək "istəkləri" ilə hesablaşardı.*

**Sovetlər dövründə Azərbaycanın öz ordusunun olmasını kimsə ağlına belə gətirə bilməzdi.**

*"Qızıl Ordu" adlandırılan vahid sovet ordusu vardı. Xidmət yaşı çatmış bütün gənclər həmin orduya çağırılar, SSRİ ərazisində, hətta "beynəlmiləl borcunu yerinə yetirmək üçün" Əfqanıstanda belə qulluq edə bilərdi.*

*O illərdə müsəlman respublikalarından olan gəncləri adətən sovet ordusu tərkibində olan "inşaat batalyonları"na salardılar. Hərbi vərdişlərə, bilgilərə yiyələnməkdən kənarda saxlayar, xüsusən məxfilik daşıyan raket texnikası ilə bağlı hissələrə yaxın qoymazdılar.*

**Yeri gəlmişkən, yalnız Ulu Öndər Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdıqdan sonra bu "ənənəyə" son qoydu, azərbaycanlı gənclərin hərbi təhsil alması yolunda maneələri aradan qaldıraraq C. Naxçıvanski adına hərbi təmayüllü məktəbi yaratdı, sonra Azərbaycandakı və SSRİ-nin digər yerlərindəki ali hərbi məktəblərdə azərbaycanlı gənclərin təhsilinə şərait yaradan güzəştli şərtlərə nail oldu.**

Birinci Qarabağ müharibəsi dövründə Heydər Əliyev sayəsində təhsil alaraq vətənə xidmətə qayıdan hərbçilərin həm müharibədə, həm də sonrakı ordu quruculuğunda fəal iştirakı və zəhməti oldu.

Azərbaycan müstəqil dövlət olduqdan sonra hər şey dəyişdi!

Amma bu dəyişikliklərə xeyli zaman sərf olundu.

Əvvəla, həqiqi müstəqilliyə (deklorativ yox) nail olmaq lazım idi.

İkincisi, müstəqil daxili və xarici siyasət yürütmək üçün özün-özünü yaşada, dolandıra bilməlisən.

Başqa sözlə, qazancın dövləti və xalqını saxlamağı, inkişaf etdirməyə çatmalıdır.

Ən nəhayət, bütün bu işlər səriştəli şəkildə yerinə yetirilməli idi.

❖ ❖ ❖

**Xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqil dövlət kimi yaşamasının, müstəqil daxili və xarici siyasət yürütməsinin əsasını qoydu.**

"Əsrin müqaviləsi" neft kontraktı imzalanaraq Azərbaycanın iqtisadi yüksəlişinin təməli qoyuldu.

Yeni Konstitusiya və onun əsasında müstəqil dövləti idarə etmək üçün zəruri qanunçuluq bazası yaradıldı.

Özəlləşdirmə proqramları həyata keçirildi, aqrar islahatlar aparıldı.

Azərbaycanın dünya birliyinə inteqrasiyası başladı.

❖ ❖ ❖

**Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən cənab İlham Əliyev Azərbaycanın müstəqil dövlət kimi güclənməsi, milli maraqlara söykənən müstəqil siyasət yürütməsini təmin edərək onu Cənubi Qafqazın ən güclü dövlətinə, dünyada söz sahibinə çevirdi.**

*Prezident İlham Əliyevin rəhbərlik etdiyi inkişaf və quruculuq prosesində Azərbaycanın özünəməxsus, hamının qəbul etdiyi və öyrəndiyi inkişaf modelləri də formalaşdı.*

Onlardan biri ölkənin iqtisadi inkişaf modelidir.

İnkişafın Azərbaycan modeli Xəzərin karbohidrogen ehtiyatlarının şaxələndirilmiş marşrutla dünya bazarına nəqlini, neftdən götürülən vəsaitin iqtisadiyyatın digər sahələrinin inkişafında lokomotiv funksiyasını daşımasını, sonrakı mərhələdə ölkənin neftdən asılılığının azaldılması və qeyri-neft sektorunun inkişafını nəzərdə tuturdu.

**İlham Əliyevin müəllifi olduğu İnkişafın Azərbaycan Modeli ölkəmizin iqtisadi və siyasi cəhətdən güclənməsinə, dünya birliyinə sıx inteqrasiyasına, Cənubi Qafqazın liderinə çevrilməsinə imkan yaratdı.**

*Bu modelin uğurları hesabına Azərbaycan dövlətinin əldə etdiyi vəsait ordu quruculuğunu, onun ən müasir silahlarla silahlandırılmasını da təmin etdi.*

❖ ❖ ❖

**İdmanın inkişafının Azərbaycan modeli də İlham Əliyevin formalaşdırdığı mühüm yenilikdir.**

Bu model qısa müddətdə ölkəmizdə idmanın sürətli inkişafına, çoxsaylı olimpiya idman kompleksinin, yeni arena, idman qurğuları və idman saraylarının inşasına şərait yaratdı. Azərbaycan idmançıları dünya, Avropa və beynəlxalq idman yarışlarında iştirak edərək dövlət bayrağımızı yüksəldib himnimizi səsləndirdilər, müxtəlif əyarlı medal və mükafatlar qazandılar.

*Ardı 2-3-cü səh.*

# Zəfər salnaməsi

## Azərbaycan tarixinin 44 şərəf günü

Azərbaycan xalqı üçün geridə qalan 2020-ci ilin ən böyük hadisəsi ərazi bütövlüyünün bərpası oldu. Sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu təcavüzkar Ermənistanı məğlub edərək işğal siyasətinə son qoydu. Bu savaş Müzəffər Ali Baş Komandan İlham Əliyevin şərtləri ilə düşmənin kapitulyasiyası ilə başa çatdı.

*(əvvəli qəzetin 8, 9 yanvar nömrələrində)*

### Ermənistan mülki əhaliyə qarşı hərbi cinayətlərini davam etdirdi

Bu müharibə bir çox mətləbləri ortaya qoydu. Bütün dünya gördü ki, Azərbaycan Ordusu ən qısa müddətdə Ermənistanın işğalçı siyasətinə son qoymağa qadirdir. Hamı şahid oldu ki, cəmi bir neçə günə Ermənistan rəzil və aciz duruma salındı. İşğalçı dövlət isə döyüş meydanında duruş gətirə bilmədiyindən Azərbaycana qarşı insanlıqdan tamamilə kənar, müharibə qanunlarına zidd olan qaydalarla cavab verməyə çalışırdı. Azərbaycan Ordusu düşmənin yalnız hərbi obyektlərini nişan aldığı halda, erməni faşistləri həm cəbhəboyu rayon və kəndlərimizi, həm də cəbhə zonasından kənarda yerləşən Gəncə və Mingəçevir şəhərlərini, Abşeron, Xızı, Bərdə, Beyləqan, Ağcabədi, Goranboy, Göygöl, Tərtər, Yevlax, Horadiz yaşayış məntəqələrini atəşə tuturdu.

Hələ oktyabrın 4-də günorta saatlarında cəbhə zonasından kənarda yerləşən Gəncə şəhərinin raket və artilleriyadan atəşə tutulması nəticəsində bir nəfər mülki şəxs həlak oldu, xeyli insan yaralandı.

*Ardı 4-cü səh.*

# Qələbədən sonra başlanan yolun XƏRİTƏSİ

Azərbaycan üçün çox ağır bir sınaq ili başa çatdı. İnsanlar bu müddət ərzində həm sosial məsafə tələbi ilə bir-birindən uzaq durmağa, tənha qalmağa məcbur oldu, həm də aradakı məsafəyə baxmadan bərabər olub, bir ürək kimi vurmağı öyrəndi. Bir tərəfdən hər vətəndaşın ayrıca məsuliyyətinin vacibliyi vurğulandı, digər tərəfdən bütün xalq xilas yolunu tək Liderin - Prezidentin ətrafında bir yumruq kimi birləşməkdə gördü.

Bir il ərzində xalq qütbün əks uclarına çəkilməklə yanaşı, zirvəyə qalxmağı da bacardı. Pandemiyanın pərən-pərən saldığı insanlar Vətən müharibəsinin başlaması ilə xalq, millət olaraq ayağa qalxdı, dünyaya özünün şərəfli adını eşitdirə bildi. Bu qədər sınaq millətin mənəviyyatında, kimliyində sanki yeni bir ali mərtəbəni kəşf etdi, unudulmuş tarixin səhifələrinin üstündəki illərin gətirdiyi toz qatını təmizlədi. Sınaq bitdi, yeni bir inkişaf dövrü başladı və hər kəs yenə də öz Liderinin sözünü gözlədi. Ölkə Prezidenti İlham Əliyev isə həm Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə Yeni ilin astanasında xalqa təbrikində, həm də ondan bir neçə gün sonra yeni mədəniyyət nazirinə verdiyi təlimatlarında bütün xalqa Azərbaycanın yeni inkişaf mərhələsində hansı istiqamətdə və necə getməli olduğunu aydın bildirdi.

*Ardı 4-cü səh.*

# Bizim üçün müharibə də, 30 illik işğal da arxada qalmışdır

## İlham Əliyev Azərbaycanı nikbin gələcəyə və yeni iqtisadi yüksəlişə kökləyir

İşğalçı Ermənistanın bizə qarşı apardığı gizli və açıq müharibələr bir bataqlıq kimi onun özünü fəlakətli məğlubiyyətin girdabına çəkdi. Son 30 il ərzində ərazilərimizi işğal altında saxlayan, saysız-hesabsız vəhşiliklər törədən azğın erməni vandallarını Azərbaycanın təmkin və ləyaqətlə sülhə məcbur etməsini bütün dünya yüksək qiymətləndirməlidir.



İşğalçı dövlət isə fürsətdən yararlanmaq üçün barışdan ikiəlli yapışmalı, güzəşt və təkliflərimizi minnətdarlıq hissi ilə qiymətləndirməlidir. Ermənistanın gələcəyi xaricdəki diasporunun nasizm çığırtıları altında qonşularla dalaşmaqdan, sengiməyən müharibə ritorikası ilə kükrəməkdən yox, Azərbaycanla yeni əməkdaşlığın qurulmasından asılıdır.

Təəssüf ki, kapitulyasiya aktına məğlubiyyətin vahiməsi altında imza atan Ermənistan hələ də düzgün yol seçə bilmir. Yerevandakı mitinqlər siyasi partiyaların qarşıdurmasını dərinləşdirir, xalq övladlarının Qarabağa göndərilməsinin səbəbinin izahını istəyir, əsgər anaları itkin düşən və ölən övladlarının tapılması üçün qonşu dövlətlərin prezidentlərinə müraciət edirlər. Xankəndidə isə adı tarixdən silinən qondarma rejim səngərlər qazır, partizan dəstələri hazırlayır. Bir sözlə, Ermənistan günün reallıqları ilə yox, yaxın keçmişin ilğıma dönən xülyaları ilə yaşayır. Görünür, 30 il arxasınca bütün sülh körpülərini yandıran işğalçı dövlət faşist ideologiyasının köləsinə çevrildiyini anlamaq iqtidarında deyil.

*Ardı 6-cı səh.*

◆ **İlin uğurlu yekunları**

# İşıqlı Azərbaycan

## Yeni stansiya və yarımstansiyalar ölkəmizin elektrik enerjisi sistemini daha da gücləndirib

Azərbaycanda həyata keçirilən əsaslı islahatlar sırasında enerji sektorunun müasirləşdirilməsi və inkişafı istiqamətində görülən işlərin də özünəməxsus yeri var. Bu işlər geniş miqyası və mühüm əhəmiyyəti ilə seçilir. Enerji sisteminin etibarlılığının təmin edilməsi üçün mükəmməl infrastrukturun yaradılması istiqamətində həyata keçirilən tədbirlər ardıcıl xarakter daşıyır.

2020-ci ildə də Azərbaycanda yeni generasiya gücləri yaradılıb. İstifadəyə verilən stansiya və yarımstansiyaların açılışında Prezident İlham Əliyevin iştirak etməsi diqqəti bir daha bu hadisələrin önəmli olduğuna yönəldir.

İyunun 25-də əsaslı yenidənqurmadan sonra istifadəyə verilən "Azərbaycan" İstilik Elektrik Stansiyası ölkəmizin enerji sisteminin gücünü daha da artırıb. "Azərbaycan" İES uzun illər ölkənin elektrik enerjisinə tələbatının ödənilməsində birinciliyini qoruyub saxlamışdır. Lakin məlum olduğu kimi, 2018-ci il iyulun 3-də stansiyada qəza baş vermişdir.

Stansiya qısa müddətdə tamamilə yenidən qurulmuş, 8 blokun hamısı işlək vəziyyətə gətirilmişdir. Obyektin 2400 meqavat generasiya gücü bərpa edilmişdir. Qəza baş verən yarımstansiyalar yenidən tikilmiş, müasir idarəetmə mərkəzi yaradılmışdır. Beləliklə, stansiyanın ömrü ən azı 20-30 il, bəlkə də 50 il uzadılmışdır. Hazırda bu stansiya ölkənin elektrik enerjisinə olan tələbatının 40 faizini ödəyir. Burada istehsal edilən elektrik enerjisi respublikanın enerji sisteminə 330 və 500 kilovoltluq elektrik verilişi xətləri ilə ötürülür.

*Ardı 6-cı səh.*

# Ölkəmiz koronavirus sınağından inamla çıxır

Dünyanı başına alan koronavirus infeksiyası hələ də bəşəriyyəti öz caynağında saxlamaqdadır. Hər kəs virusla mübarizədə səmərəli xilas yolu olaraq peyvəndlənməni gözləyir. Mütəxəssislər də ümid edirlər ki, qış aylarından sonra dünya sağlam həyata qayıtmaq imkanı əldə edəcək.

Peyvəndləmə ilə bağlı Azərbaycanda aparılan işlər də yekunlaşmaq üzrədir. Bu da onu deməyə əsas verir ki, yaxın zaman ərzində ölkədə peyvəndləmənin tətbiqinə başlanılacaq. Artıq Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) tərəfindən ölkəmizdə aparılacaq vaksinasiyanın təşkili və əlavə təsirlərinin idarə edilməsi ilə əlaqədar təlimlərə də başlanılıb.

TƏBİB-in departament rəhbəri Elmir Bəşirov məlumat verib ki, respublikamızda vaksinasiyanı aparacaq həkim və tibb bacılarından ibarət briqadalar prosedurun qaydası ilə əlaqədar təlimatlandırılır. Ölkəmizdə vaksinasiya 150 məntəqədə aparılacaq. Həmin məntəqələrdə xəstənin qeydiyyatı, şikayətlərin qəbulu, qızdırmanın ölçülməsi, kompüterdə və jurnalda qeydiyyatın aparılma qaydası barədə məlumat verilir.

*Ardı 7-ci səh.*









# MÜHARİBƏNİN AZƏRBAYCAN MODELİ

> **“Təkcə silahlarla qələbə qazanmaq mümkün deyil. Bayrağı qaldıran, bayrağı düşmənin mövqeyinə sancan, azad edilmiş torpaqlara sancan əsgərdir, zabitdir. Bizim əsgər və zabitlərimiz aslan kimi vuruşdular”**
>
> **İlham ƏLİYEV**



*Əvvəli 1-ci səh.*

Birinci Avropa Oyunlarını, IV İslam Həmrəyliyi Oyunlarını Bakıda yüksək səviyyədə keçirən Azərbaycan artıq beynəlxalq idman oyunlarının yüksək səviyyədə təşkilatçısı imicini də qazanmışdır.

*İdmanın inkişafının Azərbaycan modeli ölkəmizdə sağlam, güclü, vətənpərvər gənclərin yeni nəslinin yetişməsinə mühüm töhfə verdi. Həmin gənclər Azərbaycan Ordusunda da həvəslə xidmət edir, qarşıya qoyulan vəzifələri cəsarət və igidliklə yerinə yetirirlər.*

❖ ❖ ❖

**Multikulturalizmin Azərbaycan modeli də müstəqillik dövrünün nailiyyətlərindəndir.**

Ölkəmiz çoxkonfessiyalıdır, burada müxtəlif dinlərə sitayiş edən insanlar mehribanlıq şəraitində yaşayırlar.

Yeni məscid, kilsə, sinaqoqlar tikilir, insanlar sərbəst şəkildə dini məbədlərdə ibadətlə məşğul ola bilirlər.

Milli mədəniyyətlərin inkişafına daim münbit şərait yaradılır.

*Hazırda dünyada Multikulturalizmin Azərbaycan Modeli maraqla öyrənilir, dünyanın bir çox ölkələrindəki universitetlərdə bu model tədris proqramına salınmışdır.*

**Azərbaycanda yaşayan xalqların və millətlərin mehribanlığı və birliyi müharibə dövründə düşmənə sarsıdıcı zərbələr vurulmasında və qələbənin qazanılmasında əsas amillərdən biri oldu.**

❖ ❖ ❖

**Müharibənin Azərbaycan modeli də Prezident İlham Əliyevin gərgin və səmərəli, uzunmüddətli fəaliyyətinin nəticəsidir.**

*Bu model özünü ilk növbədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həllinə hazırlıq mərhələsində göstərdi.*

Dünyanın yeni düzəninin formalaşdığı, bir sıra dövlətlərin imperiya iddialarından hələ də əl çəkmədiyi, ikili standartların mövcudluğu dövründə müharibəyə başlamaq və onu qələbə ilə başa çatdırmaq elə də asan iş deyildi!

Müharibənin hibrid mərhələsinə keçdiyi, təkcə döyüş meydanında deyil, informasiya “cəbhəsində” və sosial şəbəkədə də döyüşmək zərurəti artıq real gerçəklikdir. Bu gerçəkliyi nəzərə almamaq və qabaqlayıcı tədbirlər görməmək isə mümkünsüzdür!

ATƏT-in Minsk qrupu 27 il sülhyaratma missiyası ilə “məşğul” oldu. Amma necə! Cənab İlham Əliyev Minsk qrupu yaradılan gündən indiyədək onun nə etdiyini (əslində heç nə etmədiyini) dəqiq ifadə edib:

*“1992-ci ildə Minsk qrupu yaradıldı. Minsk qrupunun fəaliyyəti göz qabağındadır. Minsk qrupuna həmsədrlik edən ölkələr müəyyən müddətdən sonra faktiki olaraq bütün səlahiyyətləri öz əllərində cəmləşdirdilər, faktiki olaraq bu məsələni inhisara götürdülər, faktiki olaraq Minsk qrupu bir qrup kimi iflic vəziyyətə düşdü və üç ölkə bu məsələ ilə məşğul olmağa başlamışdır. Amma bunun nəticəsi oldumu? Olmadı. Bizim üçün olmadı, Ermənistan üçün oldu. Ermənistan elə bu nəticəni istəyirdi ki, daim danışıqlar getsin, daim bizim başımızı aldatsınlar, dondurulsun bu məsələ, əbədi qalsın əsarət altında bizim torpağımız, əbədi qalsın işğal altında bizim torpağımız. Bəs nədir Minsk qrupunun fəaliyyəti? İşğalçıya təzyiq edə bilibmi? Yox! Təzyiq etmək istəyibmi? Yox! Dəfələrlə mən onların qarşısında məsələ qaldırmışdım: əgər məsələnin həllini görmək istəyirsinizsə, sanksiyalar tətbiq edin Ermənistana. Sizin əlinizdədir. Siz BMT Təhlükəsizlik Şurasının daimi üzvlərisiniz, istənilən məsələni həll edə bilərsiniz. Xüsusilə bu ölkələrin rəsmi nümayəndələri deyirlər ki, bu məsələdə onların fikri üst-üstə düşür. O da maraqlı bir məsələdir. Necə olur, bütün başqa məsələlərdə - nüvə silahları ilə bağlı, Yaxın Şərqdə olan vəziyyətlə bağlı, Asiyada olan vəziyyətlə bağlı, Avropada olan vəziyyətlə bağlı bunların maraqları daban-dabana ziddir. Hansı başqa məsələdə bunların maraqları üst-üstə düşür? Heç bir məsələdə. Ancaq Dağlıq Qarabağ məsələsində. Nə üçün? Hər kəs başa düşür. Çünki bu dondurulmuş vəziyyət təbii ki, bu ölkələr arasında bizdən başqa hər kəsi qane edirdi, ilk növbədə, Ermənistanı qane edirdi.*

*Ermənistan bu torpaqlarda qanunsuz məskunlaşma aparır. Bir söz deyən var? Yoxdur! Bu, cinayətdir, beynəlxalq cinayətdir, Cenevrə konvensiyalarına ziddir. Bir söz deyən var onlara ki, sən niyə qanunsuz məskunlaşma aparırsan? Özü də bunu nümayiş etdirirsən. Ərəb ölkələrindən erməniləri gətirirsən, yerləşdirirsən, o cümlədən Şuşada. Bir söz deyən yoxdur. Bu, nə deməkdir? O deməkdir ki, davam elə, gətir, nə qədər istəyirsən gətir, bu torpaqları erməniləşdir, Azərbaycan mədəni irsini sil. Bu idi mesaj. Yoxsa bu üç ölkə məgər imkanlara sahib deyil ki, təcavüzkara öz yerini göstərsin? İstəmirdilər. Bu reallıq onları qane edirdi.*

*Ona görə Minsk qrupunun fəaliyyətinə başqa qiymət vermək olmaz. Elə bil bizi bu vəziyyətlə barışmağa sürükləyirdilər ki, yeni reallıqlar yaranıbdır, siz də reallıqlarla hesablaşmalısınız. Biz yeni bir reallıq yaratmışıq. İndi hər kəs yeni reallıqla hesablaşmalıdır”.*

**ATƏT-in, habelə dünyadakı ermənipərəst qüvvələrin işğalçıya güclü dəstək verdikləri və “münaqişənin sülh yolundan başqa həlli variantı yoxdur” deyə yorulmadan təkrar edildiyi bir vaxtda hərbi əməliyyatlara əsaslandırılmış şəkildə başlamaq da Azərbaycanın müharibə modelinin tərkib hissəsidir.**

İndi dünya əvvəlki dünya deyil!

Daha dünyada gedən proseslərə bir-birilə ziddiyyətdə olan iki superdövlət - ABŞ və SSRİ təsir etmir.

Dünyanın qloballaşma prosesi də iflasa uğramaqdadır.

Yeni güclər, yeni konfiqurasiya, yeni düzən yaranmaqdadır.

Həm də yeni reallıqlar və gerçəkliklər fonunda!




İndi dünyanın hər hansı bir nöqtəsində baş verən və təbii ki, maraq doğuran hər hansı bir hadisə dərhal dünyanın bütün nöqtələrinə yayılır.

Həm də “sözlü informasiya” kimi yox, “görünən informasiya” kimi.

İndi dünyada informasiya yuxarıdan ötürülərək aşağıda formalaşmır. Əksinə, aşağılardan yayılaraq milyonların dəstəyi ilə ictimai rəy kimi təşəkkül tapmaqla yuxarıları onu nəzərə almağa sövq edir.

*Daha nəyisə gizlincə həll etmək mümkün deyil!*

*Odur ki, hər şeyi irəlicədən ölçüb-biçmək, içtimai rəyi nəzərə almaq vacibdir!*

*Bu həm də o deməkdir ki, içtimai rəyə təsir göstərməyi, onun öz xeyrinə formalaşmasına yardımçı olmağı bacarmalısan!*

**44 günlük müharibəyə başlamazdan öncə Ali Baş Komandan İlham Əliyev bütün bunları dəqiqliklə hesablayıb nəzərə almışdı. Həm də əvvəlcədən görünməyən, hərbi əməliyyatların gedişində meydana çıxa biləcək məqamları da gözaltı edərək, onlardan da istifadəni, yaxud zərərsizləşdirmənin yollarını müəyyənləşdirmişdi.**

Diqqət etdikdə müharibənin Azərbaycan modelinin üç əsas hissədən ibarət olduğu meydana çıxır:

- müharibəyə hazırlıq;
- hərbi əməliyyatların aparılması;
- müharibədən sonrakı dövrdə görüləcək işlər.

**Ali Baş Komandan İlham Əliyevin daimi açıq və şəffaf olan fəaliyyətində də üç mühüm məqam aydın nəzərə çarpır:**

- diplomatiya sahəsində fəaliyyət;
- müharibənin gedişinə rəhbərlik;
- beynəlxalq KİV-də iş.

Bunlara qədər isə Azərbaycana rəhbərlik etdiyi 17 il ərzində Prezident İlham Əliyev bir çox zəruri məsələləri yoluna qoya bilmişdi. Həm də mənasız danışıqların aparıldığı, Azərbaycana problemin hərbi yolla həllinin yasaq göründüyü bir dövrdə. Həmin illəri İlham Əliyev belə xarakterizə edir: *“Gəlib-getmək, orada görüş, burada danışıqlar. Biz bu danışıqlardan boğaza yığılmışıq. Bu düşmənlə nə qədər danışıqlar aparmaq olar? Özü də düşmən harınlaşır, azğınlaşır, qudurur və bizə deyirlər ki, yox, ancaq sülh yolu ilə, bunun hərbi variantı yoxdur. Kim deyir ki, yoxdur? Bəs indi məsələnin hərbi variantı deyilmi? Biz nə edirik? Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına yerinə yetiririk. Halbuki bu, BMT Təhlükəsizlik Şurasının vəzifəsidir. Biz təkbaşına icra edirik. Biz yeni reallıq yaratmışıq. Hesablaşın!”*

**Deməli, danışıqlarla bərabər, mümkün hərbi varianta da hazırlıq dayanmadan davam edirdi.**

❖ ❖ ❖

**Müharibə ilk növbədə güclü iqtisadiyyata söykənməlidir!**

**Çünki onun hər günü milyonlarla dollar vəsait deməkdir.**

Əgər dövlətin hələ irəlicədən nə qədər çəkəcəyini, uzandığını bilmədiyi müharibəyə kifayət qədər hazırlığı yoxdursa, qələbə barədə düşünməməlidir.

Prezident İlham Əliyev bu zəruri məqamı irəlicədən aydın görürdü:

*“Biz güc toplayırıq, məqsədyönlü şəkildə, yorulmadan, bütün təzyiqlərə baxmayaraq, güc toplayırıq və toplamışıq. İqtisadi güc. Əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi və təmin edildi. Bu gün Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. Müstəqilik və bu, bizə imkan verdi ki, ölkəmizi inkişaf etdirək, eyni zamanda Ordumuzu gücləndirək. Biz Ordumuz üçün lazım olan bütün hərbi texnikanı, silahları xarici bazarlardan alırıq. Əgər bizim iqtisadi imkanlarımız olmasaydı, biz bunları necə əldə edə bilərdik?”*

Müharibəni ordu aparır.

Ordunun ordu olması, düşmənə qalib gəlməsi üçün çox şərtlər vardır.

İlkin şərtlərdən biri isə silahlanmadır.

Xüsusən də indiki dövrdə, XXI əsrdə!

Çünki əsgər də, zabit də silahla vuruşur, düşmən ölkədən silah gücünə qovulur!

İlham Əliyev bu vacib şərtə xüsusi diqqət yetirmişdir: *“Bu 17 il ərzində mənim işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək. O da asan məsələ deyildi. O silahları almaq üçün təkcə maddi vəsait kifayət etmir. Eyni zamanda, diplomatik, siyasi səylər göstərilməlidir və biz buna da nail olduq. Bu gün Azərbaycan öz hərbi təchizatını bir çox ölkələrdən təmin edir. Eyni zamanda mənim təşəbbüsümlə Azərbaycanda müdafiə sənayesi yaradıldı. Biz ordumuzun tələbatını böyük dərəcədə daxili istehsal hesabına təmin edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir, o cümlədən ən müasir məhsullar. Budur bizim fəaliyyətimiz. Ordu quruculuğu, hərbçilərin maddi-məişət problemlərinin həlli, təqaüdə çıxmış hərbçilərin məişət problemlərinin dövlət tərəfindən həll olunması, onlara mənzillərin verilməsi, hərbçilərimizin iş şəraitinin yaxşılaşdırılması. Biz demək olar ki, bütün hərbi şəhərciklərimizi, hərbi bazalarımızı yenidən qurduq və onlar ən yüksək standartlara cavab verir. Əlbəttə, ilk növbədə, döyüş qabiliyyəti. Döyüş qabiliyyəti artdı”.*

Özlüyündə silahlar adi dəmir parçasından başqa bir şey deyil!

O, əsgərin əlində qorxunc qüvvəyə çevrilir.

Həm də təkcə əsgərin yox, döyüşə rəhbərlik edən zabit və generalların rolu da misilsizdir.

Yüksək texnologiyalara əsaslanan silahlar təkcə fiziki güc yox, bəlkə ondan da çox ağıl, bilik, bacarıq və peşəkarlıq tələb edir.

Bütün bunlar isə təhsillə, təlimlərlə qazanılır.

**Əsgər və zabitlər peşəkarlıqlarını artırmaq üçün daimi çalışmalı, öyrənməli, sistemli təlimlər vasitəsilə təkmilləşməlidirlər.**

Yenə də Ali Baş Komandana müraciət edirik:

*“Döyüş qabiliyyətinin artırılması ordu quruculuğu sahəsində əsas amildir. Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik. Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir”.*

❖ ❖ ❖

**Azərbaycanın müharibə modelində ordunun ruh yüksəkliyi, əsgər və zabitlərin vətənpərvərlik duyğusu xüsusi yer tutur!**

Məhz bu idi İkinci Qarabağ müharibəsi dövründə Azərbaycan Ordusunu yenilməz edən!

Vətən sevgisi və düşmənə nifrətdən yoğrulan bu mənəvi güc hərbi əməliyyatların uğurlu gedişində mühüm rol oynadı.

Məhz bu mənəvi qüvvət və torpaq eşqi sayəsində Azərbaycan əsgəri Şuşa kimi möhkəm bir qalanı az qala yalın əllə, heç bir zirehli texnikanın gücündən istifadə etmədən, raket-mərmi zərbəsi endirmədən, şəhəri dağıtmadan geri aldı!

❖ ❖ ❖

**Beynəlxalq miqyasda iş aparmaq, diplomatiya meydanında da çarpışmaq mühüm amillərdəndir.**

Bu meydanın da baş qəhrəmanı cənab İlham Əliyevdir!

Onun dünya dövlətləri başçıları ilə keçirdiyi hər bir görüş, iştirak və çıxış etdiyi hər bir beynəlxalq tədbir, BMT Təhlükəsizlik Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Qoşulmama Hərəkatı kimi böyük və nüfuzlu təşkilatlara sədrliyi dövründə etdiyi çıxışlar, qaldırdığı məsələlər, irəli sürdüyü təşəbbüslər hər birimizin gözü qarşısında baş verib və hamımızın yadındadır.

**Bəli, Azərbaycanın gücü və imkanları İlham Əliyevin səmərəli fəaliyyətinə, İlham Əliyevin parlaq zəkası, uzaqgörənliyi, xarici dillərdə cəlbedici çıxışları, müdrikliyi və uzaqgörənliyi isə dövlətimizin uğurlarına xidmət edirdi və bu gün də etməkdədir.**

İlham Əliyev diplomatik məharətindən istifadə edərək Azərbaycan həqiqətlərini dünyaya qəbul etdirdi:

*“Biz bütün dünyaya sübut etdik ki, Qarabağ əzəli Azərbaycan torpağıdır. Sübut etdik ki, əsrlərboyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb. Sübut etdik ki, erməni əhalisi bu torpaqlara 200 il bundan əvvəl köçürülübdür, necə köçürülübdür, hansı məqsədlərlə köçürülübdür, hamısını biz dünya ictimaiyyətinə təqdim etdik, sübutlarla, faktlarla. Biz sübut etdik ki, Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır və bu məsələ beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Dünyanın bütün aparıcı təşkilatları, bütün beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli qətnamələr, qərarlar qəbul edibdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, Qoşulmama Hərəkatının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatının qətnamələri, Avropa Parlamentinin qətnamələri və digər beynəlxalq təşkilatların qərar və qətnamələri birmənalı şəkildə Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdı. Bu, bizə əlavə güc verdi. Əgər biz bunu etməsəydik, bu gün münaqişənin ətrafında cərəyan edən proseslər bizə böyük problemlər yarada bilərdi”.*

Biz İkinci Qarabağ müharibəsinin gedişində düşmənimiz və onun dəstəkçiləri tərəfindən bir sıra “iradlarla” rastlaşdıq. Döyüş meydanında məğlub olaraq rəzil günə düşən erməni dünya dövlətlərini bizə silah satmaqda qınamağa çalışırdı. Türkiyə, Pakistan kimi qardaş ölkələrin daim yanımızda olması, bizə hər zaman dəstək verməsi, şübhəsiz, gücümüzü artırdı. İsraildən, Rusiyadan aldığımız silahlar da daim karımıza gəlirdi. Əlbəttə, biz həmişə bu silahları pulumuzla almışıq, ermənilər kimi bizə havayı verməyiblər.





# MÜHARİBƏNİN AZƏRBAYCAN MODELİ

**"Biz qəhrəman əsgər və zabitlərimiz hesabına qələbə qazanmışıq. Təkcə Şuşanın işğaldan azad edilməsi əməliyyatı, əminəm ki, tarixdə əbədi qalacaq. Demək olar ki, yüngül silahlarla dərədən, meşələrdən, dağlardan keçərək əlbəyaxa döyüşdə düşməni məhv etdik. Qarabağın tacı olan Şuşanı azad etdik"**

**İlham ƏLİYEV**

Elə həmin ölkələrin dövlət rəsmiləri də bu məqamı əsas götürərək ermənilərin ağızlarından vururdular. Lakin İlham Əliyevin illərboyu yaratdığı bu dostluq telləri gücümüzə mənəvi güc də qatırdı: *"Biz bu illər ərzində bir çox ölkələrlə səmimi, işgüzar, qarşılıqlı hörmət əsasında münasibətlər qura bildik, bir çox ölkələr Azərbaycanı strateji tərəfdaş hesab edir və artıq bu ifadə beynəlxalq sənədlərdə öz əksini tapır. Biz bütün qonşu ölkələrlə səmimi dostluq əsasında münasibətlər qura bildik, qarşılıqlı hörmət, qarşılıqlı inam əsasında. Əgər biz bunu etməsəydik, bu gün münaqişə ətrafında tam başqa proseslər gedə bilərdi".*

❖ ❖ ❖

**Azərbaycanın müharibə modelinin tərkibində xalqımızın milli birliyi xüsusi rol oynayır.**

Ölkəmizin gücü həm də onun tolerantlığında, müxtəlif millətlərə və dinlərə məxsus xalqların bir bayraq altında birləşməsindədir. Hələ Birinci Qarabağ müharibəsi dövründə bütün dünya buna şahid olmuşdur. Bu gün respublikanın bütün guşələrində olan Şəhidlər xiyabanlarında vətən uğrunda canlarını fəda edən Azərbaycan oğulları yanaşı uyuyurlar, Milli qəhrəmanlarımız sırasında xeyli başqa millətlərin də nümayəndələri var və biz daima bununla qürur duymuşuq.

**İkinci Qarabağ müharibəsində biz iqtidar-xalq birliyinin dəmir yumruğa dönərək düşmənin başını necə əzdiyinin şahidi olduq. Ali Baş Komandan İlham Əliyev də daim bu birliyimizi yüksək qiymətləndirib:**

*"Daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşməyimiz bizə əlavə güc verdi, imkan vermədi ki, bəzi mənfur xarici dairələr öz çirkin planlarını Azərbaycanda həyata keçirsinlər. Halbuki belə planlar var idi, belə cəhdlər var idi. Biz siyasi iradə göstərərək, birlik göstərərək bu cəhdləri dəf etdik, xalq olaraq, millət olaraq öz qürurumuzu müdafiə etdik, öz müstəqil seçimimizi müdafiə etdik və sübut etdik ki, heç kim bizim işimizə qarışmasın və qarışa bilməz. Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Bu illər ərzində bizə qarşı aparılan qara piar kampaniyası, qarayaxma, şər-böhtan kampaniyasının da əsas məqsədi o idi ki, bizi əsas vəzifəmizdən uzaqlaşdırsınlar, biz uzaqlaşaq, daxili problemlər içində boğulaq və işğal edilmiş torpaqlar işğalçıların əlində əbədi qalsın. Güclü siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi".*

❖ ❖ ❖

Azərbaycan kifayət qədər səbr etdi!
Azərbaycan kifayət qədər dözdü!

**Beynəlxalq hüququn daha işləmədiyini görərək gücün hüququnu tətbiq etdi.**

**Öz müharibə modelini yaradaraq öz müharibəsini apardı.**

**Həm də ortaya yeni müharibə nümunəsi qoydu!**

**Ali Baş Komandanımızın rəhbərliyi ilə qalib gəldik!**

Torpaqlarımızın böyük qismini - 6 şəhəri və 300-dək yaşayış məntəqəsini azad etdik.

*Hərbi əməliyyatların dayandırılması üçün qarşımızda diz çökən düşmən bütün şərtlərimizi qəbul etmək məcburiyyətində qalaraq qoşunlarını işğal ərazilərindən çıxardı.*

**Böyük alicənablıq nümayiş etdirən Prezident İlham Əliyev sonrakı mərhələnin siyasi yolla həllinə razılıq verdi.**

❖ ❖ ❖

**Azərbaycanın müharibə modelinin bir xüsusiyyəti də hərbi əməliyyatların müəyyən mərhələdən sonra öz yerini siyasi həllə verməsidir.**

Prezident İlham Əliyevin xalqa müraciətindən daha bir məqam: *"İndiki mərhələdə bizim mövqeyimiz bundan ibarətdir və biz hazırıq ki, bu məsələ hərbi-siyasi yolla həll olunsun. Amma həll olunsun. Atəşkəs deyiblər, eybi yoxdur, qoy olsun... Biz mütləq bu torpaqlara (Kəlbəcər, Ağdam və Laçın nəzərdə tutulur - B.S.) hərbi-siyasi yollarla qayıdacağıq. Hərbi mərhələ bu gün başa çata bilər. Biz məsələni siyasi yollarla həll edəcəyik".*

Sonrası belə də oldu!

❖ ❖ ❖

**İnformasiya müharibəsini də uğurla aparmaq, bu sahədə də düşmənə qalib gəlmək Azərbaycanın müharibə modelinin ən vacib cəhətlərindəndir.**

*Biz bunun İkinci Qarabağ müharibəsi dövründə canlı şahidi olduq!*

Təəssüf ki, Birinci Qarabağ müharibəsi dövründə bu sahədə də düşmənə uduzmuşduq!

İndi isə həm əvəzini çıxdıq, həm də təkcə düşməni məğlub etməklə kifayətlənməyərək onun faşist xislətini açaraq bütün dünyaya göstərdik.

**İlham Əliyev informasiya sahəsini sözün həqiqi mənasında ikinci çarpışma meydanına çevirmişdi!**

**Özü də bunu təkcə biz yox, bütün dünya görürdü və izləyirdi.**

Hərbi əməliyyatlar dövründə otuzadək tanınmış televiziya kanalı və informasiya agentliyi Azərbaycan Prezidentindən müsahibə alaraq bütün dünyaya yayımladı.

Bu müsahibələri götürənlərin böyük bir qismi ölkəmizə heç də xoş məramla gəlməmişdilər və müsahibəni də xoş niyyətlə götürmürdülər.

Verdikləri suallardan, təkid etdikləri məsələlərdən aydın görünürdü ki, aralarında dünya erməniliyinin tapşırıqlarını icra edənləri də var.

Beləlləri hətta jurnalistlərin etik davranış qaydalarına əməl etmir, yersiz dirənişlər göstərir, hətta bəzən kiminlə söhbət etdiklərini unudaraq özlərini prokuror kimi aparırdılar.

**Prezident İlham Əliyev jurnalistlərlə hörmətlə, səbr və təmkinlə davranır, verilən bütün sualları faktlarla cavablandıraraq məsələləri ətraflı izah edirdi.**

Dövlət başçısının verdiyi cavablarda bir neçə istiqamət diqqət çəkirdi:

- Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə maarifləndirmə;
- ermənilərin Azərbaycan torpaqlarına XIX əsrdən köçürülmələrini sübut edən tarixi fakt və sənədlərin açıqlanması;
- ATƏT-in Minsk qrupunun 27 il ərzində heç bir nəticə əldə etməməsi;
- BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin indiyədək yerinə yetirilməməsi;
- Ermənistanın baş naziri N.Paşinyan tərəfindən sülh danışıqlarının pozulması və mənasız edilməsi;
- son dövrlərdə Ermənistanın Azərbaycana qarşı təxribatları və müharibənin düşmən tərəfindən başlanılması;
- atəşkəs razılaşmasının 3 dəfə Ermənistan tərəfindən pozulması;
- Ermənistan ordusunun Azərbaycandakı mülki əhalini və obyektləri (Gəncə, Bərdə, Tərtər, Goranboy və Mingəçevir şəhərlərində) ballistik raketlərlə atəşə tutması, insanların arasında tələfat və xəsarətlərə, habelə böyük dağıntılara səbəb olması;
- Ermənistanın Azərbaycan tərəfinin şərtlərini qəbul edəcəyi təqdirdə hərbi əməliyyatların dayandırılmasına hazır olması və s...

**Cənab İlham Əliyevin müsahibələrində dünya erməniliyini müdafiə edənlərin, beynəlxalq hüququn tapdalanmasının, Ermənistanın muzdlulardan istifadəsinin, ermənilər tərəfindən Cenevrə konvensiyalarının tələblərinin pozulmasının ifşasına da geniş yer ayrılırdı.**

**İlham Əliyev tərəfindən ermənilər informasiya müharibəsində də tam məğlub oldular, iç üzləri açılaraq bütün dünyaya tanıdıldılar.**

❖ ❖ ❖

**Müharibənin Azərbaycan modelinin daha bir vacib xüsusiyyəti isə müəyyən mərhələdə hərbi əməliyyatların dayandırılması və münaqişənin siyasi müstəviyə keçirilərək danışıqlar yolu ilə həllidir.**

İkinci Qarabağ müharibəsində Azərbaycanın bu alicənab addımı - düşməni sonadək məhvetmə mərhələsində onun torpaqlardan çıxarılması ilə kifayətlənərək hərbi əməliyyatları dayandırması dünya tərəfindən bəyənildi.

Bu humanist addım işğal olunmuş ərazilərdən çıxarılan ermənilərin yaşadıqları evləri və meşələri yandıraraq getmələri fonunda xalqımızın daha alicənab və humanist olduğunu qabarıq göstərir.

❖ ❖ ❖

Bütövlükdə ölkəmiz tərəfindən aparılan 44 günlük İkinci Qarabağ müharibəsi hərbi sahədə yenilik kimi qəbul edilərək etiraf olundu. Əvvəlcə Prezident İlham Əliyevin verdiyi qiymətlə tanış olaq:

*"Onu da deyə bilərəm ki, bu gün bizim əldə etdiyimiz qələbə və apardığımız hərbi əməliyyatlar həm texniki imkanlar baxımından, eyni zamanda, operativ addımlar, əməliyyatların hazırlanması və icra edilməsi baxımından bütün dünyada öyrənilir. Bu, yeni nəsil müharibə üsuludur, hansı ki, planlaşdırma, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh birləşir, vəhdət təşkil edir. Ancaq mən bunu artıq bir neçə dəfə demişəm, bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər".*

ABŞ-ın quru qoşunlarının ordu generalı Ceyms Makkonvil Azərbaycanın apardığı bu müharibənin yeni nümunə olduğunu, bütövlükdə müharibələrin gedişində ciddi dönüş yaradacağını bildirdi. Onun fikrincə, ABŞ da bu məqamı nəzərə almalı, artıq orduda ağır və ləng manevr edən tankların zamanının keçdiyini, pilotsuz uçuş aparatlarına geniş yer verilməsinin vacibliyini qəbul etməlidir.

Qardaş Türkiyənin Milli Müdafiə naziri Hulusi Akarın söylədikləri də qürurdoğurucudur: "Həqiqətən də tarixi dəyəri olan, Azərbaycan və türk tarixinə qızıl hərflərlə yazılacaq uğur əldə etmisiniz. 44 günlük əməliyyat bitdi, amma bu haqda hələ azı 44 il danışılacağına əmin olun. Bu əməliyyat bir oyanışdır, biz Azərbaycan Ordusunun gücünü gördük".

**Yeni nəsil müharibə üsulunu özündə təcəssüm etdirən müharibənin Azərbaycan modeli praktik şəkildə nə deməkdir?**

Ermənilərin torpaqlarımızdan qısa müddətdə qovulması ilə nəticələnən İkinci Qarabağ müharibəsinin gedişi əsasında bu suala cavab verməyə çalışaq.

**Bu, ilk növbədə düşmən ordusunu iflic vəziyyətinə salan sürətli taktika deməkdir!**

**Burada əsas rolu kəşfiyyat dronları, kosmosdan nəzarət oynayırdı.**

**İkinci mərhələdə zərbə PUA-ları ön sıraya çıxırdı.**

Beləliklə, ilkin həmlələrdə:

- düşmənin atəş mövqelərinə çıxarılmış top, qrad, raket və digər qurğuları məhv edilirdi;
- düşmən istehkamları və otuz il ərzində yaradılmış müdafiə qurğuları dağıdılırdı;
- düşmənin sursat anbarları aşkara çıxarılaraq partladılırdı;
- radiolokasiya qurğuları sıradan çıxarılır və düşmən qoşunlarının idarəetməsi pozularaq pərən-pərən salınırdı;
- ön səngərdəki bölmələrlə arxanın əlaqəsi kəsilir, düşmən bütün növ təchizatdan - silah-sursatdan, canlı qüvvə və ərzaq təminatından məhrum olunurdu;
- düşmən səngərlərinə gedən yollar gecə-gündüz nəzarətdə saxlanılır, kömək üçün gələn zirehli texnika, canlı qüvvə və sursat daşıyan yük avtomobilləri elə anındaca məhv edilirdi;
- rəqibin müdafiəsini təşkil və döyüşü idarə edən komandir heyəti müəyyənləşdirilərək sıradan çıxarılırdı!

*İndiyədək görünməmiş və maraqlı məqamlardan biri isə bu idi ki, Azərbaycan vətəndaşları öz evlərində oturmaqla gündəlik hərbi əməliyyatların gedişindən əyani şəkildə xəbər tutur, məhv edilən düşmən texnikasını, canlı qüvvəsi və dağıdılan istehkamları gözləri ilə görürdülər!*

Bu, artıq kino deyildi, real döyüşlər idi.

Daha bir maraqlı məqam.

Erməni ideoloqu Zori Balayan "Ocaq" kitabında türk yatağanı (əyri döyüş qılıncı) barədə dəfələrlə, dönə-dönə söhbət açır.

Yatağana nifrətini bildirsə də, hələ də canında qalan qorxunu gizlətməyə çalışır.

Bəli, satqın və xəyanətkar erməniləri cəzalandıran yatağanı bu xəstə millət heç vaxt unutmamalıdır!

**Əslində İkinci Qarabağ müharibəsində hərbi əməliyyatların gedişində uğurlarımızı təmin edən, düşməni vahiməyə salan yatağan sanki yenidən göründü!**

**Neçə əsrdən sonra geriyə qayıtmışdı!**

**Bu dəfə "Bayraqdar" formasında!**

**Bu xəyanətkar, qudurmuş milləti yenidən cəzalandırmaq üçün!**

Beləliklə, Azərbaycan Ordusunun müasir silahları həm erməniləri cəzalandırdı, həm də canlarındakı qorxu hissini yenidən gücləndirdi!

*İndi hər dəfə Azərbaycan tərəfinə xaincəsinə baxanda bir gözləri göydə qalacaq!*

*"Bayraqdar"ın başlarına od yağdıracağından qorxduqlarına görə!*

**Bəli, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu düşmən ordusunu darmadağın edərək Ermənistanı hərbi kapitulyasiya sənədini imzalamağa vadar etdi.**

Müqəddəs torpaqlarımızı murdar ləpirlilərdən təmizlədi. Eyni zamanda hərbi əməliyyatların gedişində ciddi yeniliklər yaradaraq öz müharibə modelini də ortaya qoydu!

**Dünya hərb tarixinə qızıl həriflərlə həkk olunan bu modelin müəllifi cənab İlham Əliyevdir!**

**İlham Əliyev dövlət quruculuğu, siyasi, diplomatiya sahəsi ilə bərabər, hərbi sahədə də böyük istedad və bacarıq sahibi olduğunu sübut etdi.**

**İndi dünya hərbdə də Azərbaycandan, Müzəffər Ali Baş Komandan İlham Əliyevdən öyrənmək niyyətindədir.**

*Bu da Azərbaycanın növbəti qələbəsidir!*

*Qələbən mübarək, Azərbaycan!*
*Qarabağ Azərbaycandır!*

**Bəxtiyar SADIQOV**







# Zəfər salnaməsi

## Azərbaycan tarixinin 44 şərəf günü

*Əvvəli 1-ci səh.*

Evlərə və infrastruktura ziyan dəydi. Oktyabrın 10-da isə Rusiyanın vasitəçiliyi ilə humanitar atəşkəs barədə razılaşma əldə olunsa da, bunun qüvvəyə minməsindən az sonra - oktyabrın 11-i gecə saat 2 radələrində Ermənistan öz ərazisindən Gəncəni ballistik raketlərlə atəşə tutdu. Belə cinayətkar təxribat nəticəsində 5-i qadın olmaqla 10 nəfər həlak oldu, 16 qadın və 6 azyaşlı uşaq daxil olmaqla 34 nəfər yaralandı, 3 bina tamamilə dağıdıldı, 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı mülki obyektə ziyan dəydi.

Kəskin beynəlxalq reaksiyaları vecinə almayan Ermənistan öz faşist xislətinə sadiq qalaraq hərbi cinayətlər törətməyə davam etdi. Oktyabrın 17-si gecə saat 01 radələrində bu terrorçu dövlət yenidən Gəncə şəhərini ballistik raketlərlə atəşə tutdu. İnsanların şirin yuxuda olduqları vaxt edilən bu dəhşətli hücum nəticəsində 14 şəxs, o cümlədən 4 azyaşlı uşaq həyatını itirdi, 50 nəfərdən artıq sakin ağır yaralandı. Çoxsaylı yaşayış binaları tamamilə dağıldı, mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəydi.

İnsanlığa qarşı bu cinayətlər Ermənistanın terrorçuluq mahiyyətini bir daha göstərdi. Dinc sakinlərin ballistik raketlərlə atəşə tutulması beynəlxalq hüququn norma və prinsiplərinin, o cümlədən 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarının, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrinin kobud surətdə pozulması idi. Ona görə mülki əhaliyə qarşı törədilən bu amansızlıqlar hərbi cinayətdir və buna beynəlxalq səviyyədə hüquqi qiymət verilməlidir.

Ermənistanın hərbi-siyasi rəhbərliyinin Azərbaycan xalqına qarşı müharibə cinayəti və dövlət səviyyəsində terror aktları həyata keçirməklə vətəndaşlarımızın iradəsini sarsıtmaq, əhali arasında xof yaratmaq və bununla da öz çirkin məqsədlərinə nail olmaq cəhdləri isə iflasa məhkum idi. Çünki torpaqlarımızın azadlığı uğrunda yumruq kimi birləşmiş xalqımızın iradəsini sarsıtmaq mümkün deyildi.

### Füzulidə tarix yazıldı



"Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib - Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!" Bu müjdəni Prezident İlham Əliyev Azərbaycan xalqına oktyabrın 17-də səhər saatlarında etdiyi müraciətində verdi.

Sentyabrın 27-dən Azərbaycan Ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatları da Füzulidən başlamışdı. Həmin gün rayonun kəndlərindən Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Aşağı Əbdürrəhmanlı, oktyabrın 9-da Yuxarı Güzlək, Gorazıllı, oktyabrın 14-də Qaradağlı, Xatunbulaq, Qarakollu, oktyabrın 15-də Arış kəndi işğaldan azad edilmişdi.

Füzuli şəhərinin azad olunması xəbərini ölkə ictimaiyyəti hər gün səbirsizliklə gözləyirdi. Cəbrayıldan sonra Füzuli şəhərinin də azad olunması Azərbaycan xalqı tərəfindən böyük coşqu ilə qarşılandı. Füzulinin azad edilməsi həm də ordumuzun qarşıdakı əməliyyatları baxımından strateji əhəmiyyət kəsb edirdi. Təsadüfi deyil ki, Prezident İlham Əliyev müraciətində xüsusi qeyd etdi ki, strateji nöqteyi-nəzərdən Füzulinin təmas xəttində yerləşən bir neçə müdafiə xəttinin yarılması bizə növbəti strateji üstünlüklər verir.

Ermənistan Füzuli istiqamətində cəbhə xəttini olduqca gücləndirmişdi, bir neçə mərhələli müdafiə mövqeləri yaratmışdı. Lakin qəhrəman Azərbaycan əsgərinin gücü və əzmi qarşısında bu mövqelər tab gətirə bilmədi və elə ilk həmlədə ələ keçirildi. Füzulinin azad edilməsi ilə ordumuz yeni tarix yazdı, öz gücünü, döyüş əzmini bir daha nümayiş etdirdi.



İşğaldan əvvəl rayonda 1 şəhər, 1 qəsəbə, 78 kənd vardı. Ən iri yaşayış məntəqələri Füzuli şəhəri, şəhər tipli Horadiz qəsəbəsi, Böyük Bəhmənli, Horadiz və Qacar kəndləri idi.

1993-cü ilin avqustunda Ermənistan silahlı qüvvələrinin rayon ərazisinə hücumu nəticəsində Füzuli şəhəri, Horadiz qəsəbəsi və rayonun kəndləri işğal olunmuşdu. Həmin ilin dekabrında Azərbaycan Ordusunun başlatdığı əməliyyat nəticəsində yanvar ayında işğal olunmuş 21 kənd və strateji cəhətdən əhəmiyyətli Horadiz qəsəbəsi işğaldan azad edildi. Hazırda rayonun 140 min nəfərdən artıq əhalisinin 50 faizə qədəri rayon ərazisindəki Horadiz şəhərində, 21 kənddə və 17 qəsəbədə yaşayır. Dövlət başçısı İlham Əliyevin sərəncamları ilə Füzuli rayonu ərazisində məcburi köçkünlər üçün 11 Qayıdış, 5 Zobucuq, 1 Fin qəsəbələri salınıb. Əhalinin digər qismi Bakı, Sumqayıt, Gəncə, Beyləqan, İmişli, Saatlı, Sabirabad və digər şəhər və rayonlarda məcburi köçkün kimi müvəqqəti məskunlaşıb.

Füzuli inzibati ərazi vahidi kimi 1827-ci ildə yaradılıb və ilk adı Qarabulaq olub. Rayon kimi isə sovet hakimiyyəti dövründə 1930-cu ilin avqust ayında təşkil olunub və Qaryagin adlandırılıb. 1959-cu ilin aprelində böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Qaryagin rayonunun adı dəyişərək Füzuli rayonu adlandırılıb.

Rayon ərazisində müxtəlif dövrlərdə Günəştəpədə, Qaraköpəktəpədə, Qarabulaq kurqanlarında, Quruçay sahillərində və digər yerlərdə aparılan tədqiqatlar nəticəsində Azərbaycan xalqının qədim kökə sahib olduğu sübut edilib. 1968-ci ildə arxeoloq-alim Məmmədəli Hüseynov tərəfindən aşkar olunmuş preneandertal - Azıxantrop adamının alt çənəsinin sümükləri rayon mərkəzindən 15 km. aralı məsafədə yerləşən Azıx mağarasında tapılıb. Azərbaycan arxeologiya elminin böyük nailiyyətləri olan bu abidə Qarabağın Füzuli ərazisində vaxtilə qədim paleolit dövrünün mövcudluğunu aşkarlayıb.

### Dövlət Müstəqilliyi Gününü şərəfləndirən hadisə



Azərbaycan Ordusunun işğaldan azad etdiyi növbəti ünvanlardan biri də Araz çayı üzərindəki qədim Xudafərin körpüsü oldu. Prezident İlham Əliyev Xudafərin körpüsündə Azərbaycan bayrağının ucaldılmasını oktyabrın 18-də elan etdi.

Azərbaycan memarlıq məktəbi üslubunda inşa olunmuş, XI-XII əsrlərə aid bu körpünün azad edilməsinin xalqımız üçün xüsusilə mühüm əhəmiyyəti var. Çünki bu körpü bizim tariximizin, zəngin dövlətçiliyimizin tərənnümçüsüdür. Bu körpü Azərbaycan xalqının milli kimliyinin təsdiqidir. Körpünün işğaldan oktyabrın 18-də - Azərbaycanın Dövlət Müstəqilliyi Günü azad edilməsinin isə xüsusilə rəmzi mənası var. Körpünün məhz həmin gün azad edilməsi müstəqillik tariximizi daha da şərəfləndirdi.

### Qələbənin növbəti ünvanı Zəngilandır



Oktyabr ayı boyunca işğaldan azad edilən yaşayış məntəqələrinin sırasına hər gün yeniləri əlavə olunurdu. Ordumuzun qarşısında duruş gətirə bilməyən düşmən artıq son nəfəsini verir və Böyük Qələbəyə sayılı günlər qalırdı. Xudafərin körpüsündə Azərbaycan bayrağının ucaldılmasından bir gün sonra - oktyabrın 19-da xalqımız Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndlərinin azad olunması xəbəri ilə sevindi.

Kəndləri azad olunan rayonların sırasına oktyabrın 20-dən Zəngilan da əlavə olundu. Beləliklə, Azərbaycan Ordusunun qələbələrinin növbəti ünvanı Zəngilan şəhəri və bu rayonun kəndləri oldu. Bu barədə Prezident İlham Əliyev oktyabrın 20-də Azərbaycan xalqına etdiyi müraciətində məlumat verdi. Xatırladaq ki, bu, Prezidentin sayca beşinci bəyanatı idi. Şanlı Azərbaycan Ordusunun Zəngilan rayonu ərazisinə də daxil olduğunu deyən dövlət başçısı Havalı, Zərnəli kəndi, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndlərini və Zəngilan şəhərinin azad edilməsi xəbərini xalqımıza çatdırdı.

Bununla yanaşı, Ali Baş Komandan Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı, Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli və Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi) və Çinarlı kəndlərinin azad olunduğunu da bəyan etdi.

"Qovuruq onları bizim torpaqlarımızdan, bundan sonra da qovacağıq! Hər gün xoş xəbərlər gəlir. Hər gün bayrağımız yeni bir yaşayış məntəqəsində ucaldılır. Budur, Azərbaycan dövlətinin, Azərbaycan xalqının gücü. Otuz il ərzində Ermənistan rəhbərliyi "güclü ordusu" haqqında uydurmalar ortalığa atırdı, "yenilməz Ermənistan ordusu" barədə miflər yaradırdı. Haradadır bu "yenilməz Ermənistan ordusu?" Görün, necə qaçır bizim qabağımızdan. Bu, mif idi, bu, yalan idi. Bunu biz yerə vurduq", - deyə Prezident İlham Əliyev müraciətində bildirdi.

Prezident İlham Əliyev oktyabrın 21-də özünün rəsmi "Twitter" səhifəsində Azərbaycan Ordusunun Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndlərini, Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndlərini, Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndlərini işğaldan azad etdiyini bildirdi.

Oktyabrın 22-də Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli, Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili, Zəngilan rayonunun isə Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərinin və Ağbənd qəsəbəsinin azad olunması xəbəri gəldi.

### Ordumuz İranla sərhəddə nəzarəti təmin etdi



Zəngilan rayonunun Ağbənd qəsəbəsinin azad olunması ilə həm də Vətən müharibəsinin gedişində növbəti tarixi hadisə baş verdi. "Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olundu. Bu münasibətlə Azərbaycan və İran xalqını təbrik edirəm. Eşq olsun müzəffər Azərbaycan Ordusuna!" - deyə Prezident İlham Əliyev oktyabrın 22-də özünün "Twitter" səhifəsində bildirdi.

Həmin vaxtadək Azərbaycan Ordusunun azad etdiyi yaşayış məntəqələrinin sayı 155-ə çatmışdı. Onların arasında Füzuli, Cəbrayıl, Zəngilan şəhərləri, Hadrut, Mincivan və Ağbənd qəsəbələri vardı. 149 kənd isə Füzuli, Cəbrayıl, Zəngilan, Xocavənd, Tərtər və Qubadlı rayonlarını əhatə edirdi.

Oktyabrın 22-də Trend agentliyinə müsahibə verən Birinci vitse-prezident Mehriban Əliyeva bir sıra şəhərlər və yaşayış məntəqələrimizin işğaldan azad edilməsi barədə deyib: "Bütün xalqımızı bu əlamətdar hadisələr münasibətilə təbrik edirəm. Demək olar ki, hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Bizim əsgərlər və zabitlər döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Onlar uğurlu əməliyyatlar keçirərək bir-birinin ardınca şəhərləri və digər yaşayış məntəqələrini işğaldan azad edir, strateji yüksəklikləri tuturlar. Uzun fasilədən, təqribən 30 ildən sonra biz hamımız Azərbaycan əsgərinin doğma torpaqlarımızda bayrağımızı sancmasını qürurla müşahidə edirik. Bu, sadəcə, hərbi uğur deyil. Bu, tarixi ədalətin bərpasıdır, çünki bunlar bizim əzəli, tarixi torpaqlarımızdır. Mübaliğəsiz demək olar ki, bu gün Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır. Bizim birgə qələbələrimizin tarixini!"

Oktyabrın 23-də isə Ali Baş Komandan Müzəffər Azərbaycan Ordusu tərəfindən Xocavənd rayonunun Dolanlar, Bünyadlı kəndlərinin, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndlərinin işğaldan azad olunduğunu bəyan etdi.

*(Ardı var)*

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Qələbədən sonra başlanan yolun XƏRİTƏSİ



*Əvvəli 1-ci səh.*

## 44 günün verdiyi ruh: sıxılmış potensialın açılışı

2020-ci il başlayandan bütün dünya sanki bir dirijorun çubuğu ilə hərəkət edirdi. Bu yeknəsək, eyni zamanda gərgin günlər ərzində Azərbaycan fərqlənməli, nəinki bu gün, ümumiyyətlə son onilliklər ərzində olmayan bir addım atdı - işğal olunmuş ərazilərini silah gücünə qaytarmaq üçün ayağa qalxdı. Hadisələr pandemiyanın xofundan səsini içinə almış dünyada sanki göy gurultusu kimi səs saldı. Diqqətlər Azərbaycana yönəldi, dostluq-düşmənlik hissləri siyasətlə pərdələnməyə macal tapmamış bir anda aşkara çıxdı, tanınmış xəbər agentlikləri eksklüziv reportaj hazırlamaq üçün az qala yarışa girdilər. Və bu qədər diqqətin, eyni zamanda gündən-günə artan haqsız təzyiqlərin altında Azərbaycan bir neçə işi eyni zamanda görməli idi: ən az sayda şəhid vermək üçün döyüşlərin düzgün strategiyasını, taktikasını hazırlamaq, arxa cəbhədə xalqın əmin-amanlığını, güzəranını təmin etmək, dünya qarşısında öz haqq səsini eşitdirməklə yanaşı, həm də öz ləyaqətli simasını qoruyub saxlamaq! Dövlətin başında güclü və ağıllı Lider olduğuna görə, bunların hər biri yüksək səviyyədə öz həllini tapdı. Özünü böyük bir güvəndə hiss edən xalq gündən- günə daha çox Liderinin ətrafında sıxlaşmağa başladı. Get-gedə böyüyən qar topası kimi 44 gün ərzində bu yumruq elə bir qüdrət qazandı ki, artıq güclü dövlətlər də ehtiyat etməyə, proseslərin qarşısını almaq üçün yollar düşünməyə başladılar. İlə yekun vuran Prezident İlham Əliyev mövcud reallığı belə təsvir edir: "Müharibə bizim gücümüzü göstərdi, əyilməz iradəmizi göstərdi, birliyimizi göstərdi, müharibə rəmzinə, qələbə rəmzinə çevrilən dəmir yumruq öz gücünü göstərdi. Bu, həm birlikdir, həm gücdür. Cəmiyyətimizdə birlik də var, ölkəmizin gücü də var və həmişə olacaq". Bu güc bir günün, bir ayın içində qazanılmamışdı. Bu, əsrlər boyu tarixə öz adını yazmış Millətin öz kimliyinə dönməsi idi".

## Milli ruhun ölümsüzlük sirri

Baş verən hadisələrin, tarixi günlərin bir də alt qatı, dəyərli bir mahiyyəti formalaşmaqda idi: millətin əsrlərdir yatmış, passivləşmiş ruhu ayağa qalxmışdı, əsrlərdir reallaşmadan toplanan potensialı üzə çıxmışdı, qarşısı alınmayan bir oyanış prosesi başlamışdı. Yalnız ərazisi deyil, milli qüruru, kimliyi bərpa olunan Azərbaycan növbəti inkişaf mərhələsində əsas mövzu yüksək mənəviyyatın və bunun üzərində bərqərar olan milli təfəkkürün formalaşması idi. İlham Əliyev deyir: "Əsrlər boyu xalqımız öz mədəniyyətini qoruyub və bu, imkan verib ki, biz xalq kimi, millət kimi milli-mənəvi dəyərlərimizi, milli mənsubiyyətimizi qoruya bilək. Uzun illər ərzində Azərbaycan müstəqillikdən məhrum idi, xalqımız başqa dövlətlərin tərkibində yaşayırdı. Buna baxmayaraq, xalqımızın iradəsi, milli köklərə bağlılığı imkan vermədi ki, xalqımız assimilyasiyaya uğrasın. Bizim mədəniyyətimiz milli mənsubiyyətimizi qorumaq üçün başlıca rol oynayıbdır". Belə düşünmək olar ki, bir millətin əsrlər boyu öz milli kimliyini təhriflərdən qoruması üçün qeyri-adi bir qüdrətə sahib olmalıdır. Alman filosofu Hegelin fikrinə görə, mütləq ruh ideyanın inkişafında ən son və yüksək mərhələdir. O, özünü məhz sənət, din və fəlsəfədə gerçəkləşdirdiyinə görə, sonuncular ölümsüzdür. Öz kimliyində, mədəniyyətində bu üçünü qoruyan millətin ruhu da ölümsüzlüyə iddialıdır. Belə məlum olur ki, Prezident İlham Əliyevin istər xalqa müraciətlərində, istərsə də özünün sonuncu təlimatlarında məhz bu üç xətt üzərində dayanması təsadüf yox, məhz mənəvi inkişafın xəritəsinin əsas göstəriciləri, "yol nişanələridir". Dövlət başçısı böyük qürurla vurğulayır ki, "Bizim milli musiqimiz çox zəngindir, çox geniş auditoriya cəlb edə bilib. Bizim musiqimiz xalqımızın istedadını göstərir... Çünki ancaq istedadlı xalq belə gözəl əsərlər yarada bilir". Azərbaycan bütün dünyaya öz hərbi gücünü göstərdi, nəyə qadir olduğunu əyani şəkildə sübut etdi. Ancaq bundan daha əvvəl o, məhz yumşaq gücü ilə - muğam vasitəsilə bütün dünyanı zəbt etmişdi, Azərbaycan xalqının kimliyini tanıtmışdı. İndi bir növ forma və mahiyyət - muğam və onun beşiyi hesab edilən Qarabağ bir-birinə qovuşdu. Bunun məntiqli möhürü isə dövlət başçısı tərəfindən Şuşanın nəinki Azərbaycanın, hətta bütün bölgənin mədəni paytaxtı elan edilməsi oldu.

Digəri isə xalçaçılıqdır. Axı, Azərbaycan həm də ilmələrlə sənət, tarix yaratmaq istedadının Vətəni hesab edilir. Prezident məhz bu əhəmiyyəti ön plana çəkmək məqsədilə qeyd edir ki, "Dünyada xalçaçılıq sənəti ilə məşğul olan ölkələrin sayı o qədər də çox deyil. Onların arasında Azərbaycan xalçalarının xüsusi yeri vardır. Özü də xalçalarımızın, xalça məktəblərinin müxtəlifliyi bizim mədəni zənginliyimizi göstərir. Xalça sənətini də biz yaşadırıq. ...Xalçaçılıq sənəti əbədi yaşamalıdır". Muğam, xalçaçılıq, yaxud UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına salınan neçə tarixi, təkrarolunmaz memarlıq abidələri - hər birinin qorunması yalnız mədəniyyət nümunəsinin mühafizəsi deyil, həm də bir millətin ruhunun əbədiliyini təmin edən fenomenlərin yaşadılmasıdır. Bu, bir millətin tarixinin, kimliyinin səsə, ilməyə, daşa həkk edilib gələcək nəsillərə çatdırılmasıdır.

Hegelin sözlərinə istinad etsək, ruhun ölümsüzlüyünü təmin edən ikinci faktor dindir. Azərbaycanın multikultural, tolerant ölkə olması artıq dünyaya məlum bir həqiqətdir. Müharibə günlərində, sınağın ən ağır məqamında belə Azərbaycan özünün bu prinsiplərindən bir addım da olsa geri çəkilmədi. Dövlət başçısı yeni mədəniyyət nazirinə təlimatlar verəndə belə bir vacib faktı da xatırlatdı: "Bizim dini abidələrimiz qorunur və qorunacaq. Mənim göstərişimlə bizim bütün əsas dini abidələrimiz təmir olunub... Azərbaycan bu sahədə də dünyaya göstərir ki, nə qədər zəngin mədəni irsə malikdir. Dünyanın ən qədim məscidlərindən biri olan Şamaxı Cümə məscidi ölkəmizdə yerləşir, 743-cü ildə inşa edilib, ... xristian dininə mənsub olan abidələr, alban kilsələri, Kiş kilsəsi, Xudavəng kilsəsi. ...Qafqaz Albaniyasına aid olan bütün digər kilsələr, o cümlədən Nic qəsəbəsindəki kilsə. Heydər Əliyev Fondu tərəfindən təmir olunan bu kilsə müharibə zamanı açılıb və bizə qarşı əsassız ittihamlar irəli sürənlərə ən gözəl cavab məhz budur. Müharibə zamanı alban-xristian kilsəsinin təmirdən sonra açılışı olubdur. Rus-pravoslav kilsələri, sinaqoqlar, katolik kilsə, gürcü kilsələri, Bakıda yerləşən erməni kilsəsi - bütün bunlar dövlət tərəfindən qorunur". Bu, sadəcə, quru daşların, divarların, tarixi abidələrin qorunması deyil. Bu, neçə-neçə şəxsin əqidəsinə hörmət, imanına ehtiram deməkdir. Bu, millətin ruhunun tamlığını qorumaq, onun inkişafı, öz kimliyi ilə qürur duymaq üçün şəraitin yaradılması deməkdir.

Nəhayət, Hegelin siyahısındakı sonuncu faktor - fəlsəfədir, hikmətdir. Əslində, il ərzində olanlar düşüncələr üçün uzunmüddətli bir qida verdi. Bununla yanaşı, çox əhəmiyyətli bir məsələ də var ki, dövlət başçısı məhz onun üzərində durmağı lazım bildi: təfəkkürün güzgüsü olan dil faktorunun. Prezident İlham Əliyevin: "Biz əsrlər boyu dilimizi qorumuşuq, bundan sonra da qorumalıyıq. Bu gün dünyada 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir," deməsindən də görünür ki, dil istər mənəviyyatın formalaşmasında, istərsə də təfəkkürün inkişafında xüsusi bir rola və əhəmiyyətə malikdir. Məhz bundan da belə nəticə çıxır ki, dil elə bir sahədir ki, onun qorunması, sadəcə, dilçilərin deyil, milli kimliyin keşiyində duran bütün məsul şəxslərin, mütəxəssislərin üzərinə düşür. İşin ağırlığını və miqyasının böyüklüyünü nəzərdə tutan ölkə rəhbəri onu da bildirir ki, "Hesab edirəm ki, Mədəniyyət Nazirliyi digər aidiyyəti qurumlarla birlikdə, Təhsil Nazirliyi ilə, Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan dilinin qorunması üçün çox ciddi işlər aparmalıdır. Müxtəlif tədbirlər görülür, proqramlar var, ancaq gündəlik həyat onu göstərir ki, biz bəzi hallarda dilimizin saflığının pozulmasını görürük. Mən bunu mətbuat orqanlarından, televiziya məkanından görürəm və əlbəttə ki, bunun qarşısı alınmalıdır". Bəli, dil pozuntuları əslində düşüncələrin işğalından xəbər verir. Ərazilərin işğaldan azad olması ilə, böyük Qələbənin əldə edilməsi ilə düşüncələrdə milli kimlik önə çıxacaq və bu, əksini ticarət və xidmət obyektlərinin adında da öz əksini tapacaq. Yəni hər şeydən əvvəl insan öz millətini, öz kökünü sevməlidir ki, onun dilini də sevsin, onu hər şeydən üstün bilsin, onu eşitməkdən, eşitdirməkdən qürur duysun. Vətən müharibəsi müddətində bütün fəxr olunan hadisələr, adlar, yerlər məhz öz dilimizdə olduğuna görə, Qələbədən sonra bir növ düşüncələr də "işğaldan" azad olmalıdır.

## Gələcəyin məsuliyyəti

Azərbaycan hər zaman daxil olduğu mədəniyyət bölgəsinin ən gözəl, nadir incisi kimi tanınmağı bacarıb. Söhbət, sadəcə, ərazidən getmir. 30 il həmin torpaqlar düşmənin tapdağında qalmışdı. Nə bir quruculuq, nə də bir yaradıcılıq işi aparılmışdı, əksinə, dağıdılıb, yandırılıb, talan edilmişdi. Səbəb sadədir: forma və mahiyyət bir-birinə uyğun deyildi! Tarixi torpaqlar öz sahibini çox yaxşı tanıdığına görə, işğalçıya nə ruh verirdi, nə enerji. Çox əhəmiyyətli bir faktdır ki, hələ savaş bitməmiş, Prezidentin əmri ilə artıq azad olunmuş ərazilərdə quruculuq, bərpa işləri başlandı. Uzun illər reallaşmadan qalan mahiyyət ilk imkanda özünü ifadə etməyə başladı. Yeni ilin ilk dəqiqələrində dövlət başçısı öz xalqına məhz bu mesajı verdi: "Gələcəkdə bizi böyük işlər gözləyir, ölkəmiz üçün yeni dövr başlayır, quruculuq dövrü, inkişaf dövrü, torpaqlarımızın bərpası günləri bizi gözləyir. Bu dövr şərəfli dövr olacaqdır. Baxmayaraq ki, düşmən işğal etdiyi və artıq azad olunmuş torpaqlarda hər şeyi dağıdıb, biz bütün şəhərlərimizi bərpa edəcəyik, kəndlərimizi bərpa edəcəyik, Qarabağ bölgəsində cənnət yaradacağıq. Bizim xalqımız buna layiqdir. Bizim xalqımıza qələbə yaraşır və qələbə həmişə bizimlə olacaq!" Bu sözlər möhtəşəm bir eranın gəlişinin müjdəsidir, Vətənin quruculuğunda heç kəsin kənarda qalmamasına bir çağırışdır.

Vətən müharibəsi günlərində Azərbaycan dünyanı daha bir keyfiyyəti ilə heyran qoydu: həmrəyliyi ilə. Ən uzaq ölkədən tutmuş, cəbhə bölgəsinin bilavasitə qaynar nöqtəsində olan hər bir azərbaycanlı eyni ağrını və eyni sevinci yaşadı. Vətəni qorumaq üçün kimsə canı, kimsə duası, bir başqası isə maliyyəsi ilə irəli durdu. Belə məlum oldu ki, Azərbaycan mövcud sərhədlərə sığan ölkə deyil, ondan çox daha uzaqlara, qürbət ellərdə yaşayan azərbaycanlının ruhuna qədər uzanan bir Vətəndir. Belə məlum oldu ki, dünyanın harasında olursa-olsun, harada bir azərbaycanlı ürəyi döyünürsə, deməli, ora Azərbaycan imiş! Qazanılan Zəfər də hər bir kəsin haqqıdır. Və xalqın Liderinin bu təbrikinə də hər biri layiqdir: "Bu gün onlara müraciət edərək deyirəm, siz fəxr etməlisiniz və fəxr edə bilərsiniz ki, qəhrəman Azərbaycan xalqının övladlarısınız. Bu gün hər bir azərbaycanlı, hər bir Azərbaycan vətəndaşı və xaricdə yaşayan soydaşlarımız haqlı olaraq fəxr edə bilərlər ki, biz müzəffər xalqın övladlarıyıq, nümayəndələriyik".

***Könül BÜNYADZADƏ,***
***AMEA-nın müxbir üzvü***

# Azad edilmiş ərazilərimizdə dislokasiya olunan bölmələrimizin təminatı və döyüş hazırlığı səviyyəsi yoxlanılıb





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti Azərbaycan Ordusunun azad edilmiş ərazilərimizdə dislokasiya olunan bölmələrinin təminatını və döyüş hazırlığının səviyyəsini yoxlayıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir hərbi qulluqçular üçün yaradılan şəraitlə maraqlanıb, vəzifəli şəxslərə müvafiq tapşırıqlar verib.

Sonda nazirliyin rəhbərliyi hərbi qulluqçularla birgə nahar edib və onları maraqlandıran mövzularla bağlı çay süfrəsi arxasında söhbətlər aparıb.

# Alban-udi dini icmasının nümayəndələri Xudavəng monastırında Milad bayramını qeyd ediblər

Alban (Qafqaz) Apostol Müstəqil Kilsəsinin varisi olan Azərbaycan Alban-udi dini icmasının nümayəndələri yanvarın 8-də Ermənistan işğalından azad olunan Kəlbəcər rayonundakı Xudavəng monastır kompleksində İsa peyğəmbərin mövludu gününü - Milad bayramını qeyd ediblər.



AZƏRTAC-ın Kəlbəcərə ezam edilmiş çəkiliş qrupu Azərbaycan Alban-udi dini icmasının nümayəndələri ilə birlikdə Xudavəng monastır kompleksində olub. Bu, icma nümayəndələrinin məbədə ikinci səfəridir. Onlar monastırı ilk dəfə ötən il dekabrın 4-də ziyarət etmişdilər. Məbədi ziyarətə gələn hər kəs Azərbaycan Ordusunun burada qurulan nəzarət buraxılış məntəqəsindən keçir.

Kəlbəcərə Göygölün Toğanalı kəndindən qarlı yollarla getdik. Ömər aşırımını keçərək Yanşaq kəndinin yaxınlığından keçdik. Yolboyu gördüyümüz mənzərələr - sıldırım qayalar, zirvəsi qarlı dağlar, meşələr insanı valeh edir. Bu əsrarəngiz təbiət gözəlliyinin fonunda hər addımda erməni vandallığının izləri görünür. Dağıdılmış abidələri, infrastruktur obyektlərini, yandırılmış evləri, kəsilmiş ağacları ürəkağrısı ilə seyr edirik. Təsəllimiz indi bu yerlərdə üçrəngli bayrağımızın dalğalanması və quruculuq işlərinin başlanmasıdır.





Bu da son vaxtlar haqqında çox eşitdiyimiz Xudavəng monastırı... Dağların qoynunda yerləşən məbəd əzəmətli görünüşü ilə diqqəti ilk baxışdan özünə cəlb edir. Buradakı tikililər, daş abidələr kompleksin qədim tarixindən xəbər verir. Otuz il düşmən əsarətində qalan bu tarixi abidə, nəhayət, öz sahiblərinə qaytarılıb.

İcma nümayəndələri məbəd-kompleksə aid kilsədə ayinlər icra etdilər, bayram duaları oxudular, kilsədə şamlar yandırdılar.

Bu gün tarixi Alban abidələrimizdən olan bu məbəddə illərdir ibadət edəcəkləri günü səbirsizliklə gözləyən udilərin öz ayinlərini icra etmələri böyük əhəmiyyətə malik hadisədir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, artıq işğaldan azad olunmuş Xudavəng kilsəsi öz sahiblərinə, bizim udi qardaşlarımıza qaytarılıb: "Baxmayaraq ki, ermənilər bunun həm adını dəyişdirdilər, həm də orada aparılan saxtakarlıq işləri nəticəsində onun görünüşünü dəyişdirdilər, onu erməniləşdirmək istədilər, amma buna nail ola bilmədilər. Bizim udi qardaşlarımız artıq Xudavəng kilsəsində öz ibadətlərini etmişlər. Qafqaz Albaniyasına aid olan bütün digər kilsələr, o cümlədən Nic qəsəbəsindəki kilsə. Heydər Əliyev Fondu tərəfindən təmir olunan bu kilsə müharibə zamanı açılıb və bizə qarşı əsassız ittihamlar irəli sürənlərə ən gözəl cavab məhz budur".

Anım mərasimi başa çatdıqdan sonra jurnalistlərə açıqlama verən Alban-Udi xristian dini icmasının sədr müavini Rafiq Danakari Milad bayramının mahiyyətindən danışıb, torpaqlarımız düşməndən azad olunduqdan sonra bu bayramı Xudavəng monastırında ilk dəfə qeyd etmələrindən məmnunluğunu bildirib. O, həmçinin Azərbaycanda etiqad azadlığının təmin olunmasından, milli azlıqlar üçün yaradılan şəraitdən, dövlətin onlara diqqət və qayğısından söz açıb.

Xudavəng məbədinin həm tarixən, həm də memarlıq üslubu baxımından Alban Apostol kilsəsinə məxsus olduğunu söyləyən icma sədrinin müavini ermənilərin qədim monastırda etdikləri saxtakarlıqların açıq şəkildə gözə çarpdığını deyib: "Artıq 27 ildir ermənilər bu məbədi zəbt edərək özəlləşdiriblər, saxtalaşdırıblar. Bu, monastırın giriş qapısındakı erməni xaçkarlarında və daxildəki bir çox müasir xaç elementlərində özünü büruzə verir. Uzun müddətdir düşmən tapdağında olan torpaqlarımız şükürlər olsun ki, azad edildi. Buna görə Prezident, Ali Baş Komandan İlham Əliyevə təşəkkürümüzü bildiririk. Həm də ona görə təşəkkür edirik ki, Qarabağda yerləşən tarixi-memarlıq abidələrini, bu monastırı öz sahiblərinə qaytardı".

İcma nümayəndələrinin yanvarın 7-də Qəbələnin Nic qəsəbəsində Milad bayramını qeyd etdiklərini diqqətə çatdıran Rafiq Danakari Azərbaycanda müxtəlif dinlərin nümayəndələri üçün bərabər şəraitin yaradıldığını, ölkəmizdə bütün dini məbədlərin əsaslı şəkildə təmir olunduğunu söyləyib. O, müharibə dövründə Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana Alban kilsəsinin Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə bərpasının buna daha bir əyani sübut olduğunu vurğulayıb.

Xatırladaq ki, XII əsrdə yaşamış tarixçi Mxitar Qoş Xudavəng monastırının əsasının eramızın ilk əsrlərində missionerlərin Qafqaz Albaniyasında təbliğatla məşğul olduqları dövrdə qoyulduğunu qeyd edirdi. Məlumatlara görə, kompleksin ən erkən tikilisi olan bazilika (dini əhəmiyyət daşımayan toplantı yeri) İsa Məsihin həvarisi müqəddəs Faddeyin göstərişi ilə xristianlığı təbliğ etmək üçün gəlmiş Dadinin məzarı üzərində VIII əsrdə inşa edilmişdi. Bu monastır Cənubi Qafqaz ərazisində ilk alban xristian məbədlərindən biri hesab olunur.

Xudavəng monastır kompleksi tarixin daşlaşmış yaddaşıdır. Saxtakar ermənilər nə qədər çalışsalar da, tarixin buradakı izlərini silə bilməyiblər.

## ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

# Dövlət Sosial Müdafiə Fondunun sədri şəhid ailəsinə təqaüd kartını təqdim edib



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun sədri Himalay Məmişov şəhid Elvin Şıxəliyevin ailəsi (Şirvan şəhəri) ilə görüşüb.



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, H.Məmişov doğma yurdumuzun erməni faşizminin işğalından azad edilməsi uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalan Elvin Şıxəliyevin xatirəsinin daim ürəklərdə yaşayacağını deyib. Fond sədri şəhid ailələrinin dövlət tərəfindən qayğı ilə əhatə olunduqlarını bildirib. Prezident İlham Əliyevin müvafiq fərmanı ilə növbəti qayğı olaraq, şəhid ailələri üçün Prezidentin aylıq təqaüdünün yanvarın 1-dən 300 manatdan 500 manata çatdırıldığını qeyd edib.

Elvin Şıxəliyevin ailəsinə də Prezidentin aylıq təqaüdünün, habelə sosial müavinətin artıq təyin olunduğunu bildirən fond sədri ailəyə təqaüd kartını, həmçinin "Şəhid ailəsi üzvü" vəsiqəsini təqdim edib. Şəhid ailələri üçün nəzərdə tutulan sosial dəstək tədbirləri barədə ailəyə ətraflı məlumat verilib.

# Əsgər ona ayrılan pulu şəhid ailəsinə bağışladı



Bu günlərdə ordu sıralarından tərxis olunaraq evinə qayıdan Ağsu rayon sakini Kamran İsrayılovu yaxından tanıyaq. AZƏRTAC xəbər verir ki, müharibənin ilk günlərində əsgərlərimizə dəstək üçün ön cəbhədə olan Kamrana oktyabrın 4-də döyüşlərdə iştirak etmək üçün çağırış gəlib. O, bu dəfə mülki şəxs kimi deyil, hərbi qulluqçu kimi ön cəbhəyə yola düşüb.

44 günlük şanlı döyüş günlərində komandirləri tərəfindən verilən əmr və tapşırıqları uğurla yerinə yetirən əsgərimiz müharibə bitdikdən sonra atdığı addımla da nümunə olub.

Kamran müxbirimizlə söhbətində deyib: "Qismən səfərbərlik zamanı ordu sıralarına çağırılan hərbi qulluqçulara dövlət tərəfindən pul ayrılıb. Özümə borc bildim ki, mənə ayrılan 1044 manat məbləği iki şəhid qardaşımızın ailəsinə verim. Düzdür, dövlətimiz tərəfindən şəhid ailələrinə, qazilərimizə yüksək səviyyədə dəstək göstərilir. Amma Azərbaycan vətəndaşı olaraq özümə borc bildim ki, bu ailələrə az da olsa, mənim də köməyim dəysin".

2016-cı ilin Aprel, eləcə də 44 günlük Vətən müharibəsində iştirak edən qazimiz Elçin Əliyev isə deyir ki, Kamran kimi qeyrətli oğullarımızın belə əməlləri hər kəsə örnək olmalıdır. Şəhidlərimiz heç zaman unudulmamalı, onlar daim xatırlanmalı, yad edilməlidirlər. Qazilərimizə isə Allahdan tezliklə şəfa tapmalarını diləyirəm. Biz torpaqlarımızı bu oğlanların sayəsində işğaldan azad etdik. İnşallah, Qarabağımız yenidən qurulacaq, köçkünlərimiz doğma yurdlarına qayıdacaqlar.

# Dörd bacısının fəxri, Suqovuşan uğrunda şəhidlik zirvəsinə ucalan Murad Məmmədov



Şəhid Murad Məmmədov Vətən müharibəsində Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmancasına savaşıb.





AZƏRTAC xəbər verir ki, Murad Əzizulla oğlu Məmmədov 1995-ci il martın 31-də Qusar rayonunun İmamqulukənd kəndində dünyaya göz açıb. Dörd bacının tək qardaşı və ailənin sonbeşiyi idi. Atası dünyadan vaxtsız köçən Murad əsgərlikdən sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi çalışıb. Vətən müharibəsinin ilk günündən düşmən üzərinə hücuma keçən qruplarda yer alıb.

Şəhidin anası Cəminət Məmmədova Murad haqqında keçmiş zamanda danışmağa artıq çətinlik çəkdiyini söyləyir.

"Murad 4 bacının bir qardaşı idi. Əsgərliyi bitirdikdən sonra hərbidə çalışmağa başladı. İşindən çox razı idi. Murad mehriban, zəhmətkeş biri olaraq, hər çətinliyə qatlaşırdı. İşləyib ev-eşiyini düzəltmək istəyirdi. Maaşını evə göndərirdi ki, evimizin təmirini tamamlayaq. Sonuncu dəfə evə 2020-ci ilin may ayında məzuniyyətə gəlmişdi. Bir həftədən sonra onu xidmətə yola salanda elə bil ürəyimə dammışdı. Dedim, oğlum, bilmək olmaz başıma bir iş gələr, gəl səni qucaqlayım. İcazə vermədi. Qapıya çatanda dedi ki, ana gözlərimə yaxşı-yaxşı bax, əksi gözlərində qalsın. Sağollaşmağa qoymadı, çıxdı getdi. Müharibənin başlamasını bacılarına desə də, tapşırmışdı ki, mənə bildirməsinlər. Sonuncu dəfə oktyabrın 7-də danışdıq. Üç gün sonra isə şəhadətə qovuşdu", - deyə şəhidin anası bildirir.

Manqa komandiri seçilən Murad qumbaraatandan atəş açaraq düşmənin canlı qüvvəsini məhv edirdi. Ailə üzvləri Müdafiə Nazirliyinin müharibə ilə bağlı yaydığı ilk görüntülərdə Muradın döyüş kadrlarını görüb çox qürurlanmışdı.

"Qardaş acısı çox ağırdır. Murad ailəsi, dostları və tanışları ilə çox mehriban davranırdı. Müharibə vaxtı zəng vuranda "hər şey yaxşıdır bacı, narahat olmayın" deyirdi. Qardaşım qəhrəmancasına döyüşdü. Mən onunla qürur duyuram. Allah ona rəhmət eləsin",- deyə şəhidin bacısı Həlimə söyləyir.

Muradın digər bacısı Aleyna qardaşının böyük arzularının olduğunu, amma Vətən sevgisini hər şeydən üstün tutduğunu qeyd edir: "Naftalanda işləyirdi. Sonra onları ön cəbhəyə apardılar. Mənə yazmışdı ki, bacı, biz döyüşlərə başlayırıq. Amma anama deməməyi tapşırdı. Onun böyük arzuları vardı. Biz də həmişə onun ailə qurmasını, xoşbəxt olmasını arzulayırdıq. Anam bizi çox çətinliklərlə böyüdüb. Murad işləyib bu evi düzəltdi, amma özü yaşaya bilmədi. Fəxr edirəm ki, qəhrəman qardaşım var. O, Vətən uğrunda şəhid olub".

Murad Məmmədov oktyabrın 10-da Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Onunla birlikdə Suqovuşan döyüşlərində dayısı oğlu Orxan Əbiyev də döyüşüb. Orxan yaralandığından Muradın sonrakı taleyindən hospitalda xəbər tutub.

"Muradla iki ilə yaxın Mingəçevirdə bir yerdə xidmət etdik. Sonra xidmət yerlərimiz dəyişdi. Mən ona neçə dəfə dedim ki, Murad, sən dörd bacının bir qardaşısan, bəlkə xidmətini başa vurasan. Amma o, fikrindən dönmədi. Deyirdi, Vətən uğrunda şəhid olsa, onun üçün şərəfdir. Murad düşmənin atdığı artilleriya mərmisinin partlaması nəticəsində şəhidlik zirvəsinə ucaldı. Mən də yaralanmışdım. Muradın şəhid olması xəbərini hospitalda eşitdim".

İyirmi beş yaşında şəhidlik zirvəsinə ucalan Murad ölümündən sonra "Laçının azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib.

# Göygöldə şəhid ailələri ziyarət edilib

Göygöl Rayon Polis Şöbəsinin əməkdaşları Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin ailələrinə, qazilərə, eləcə də aztəminatlı ailələrə bayram sovqatları paylayıblar.



Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Gəncə regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, görüşdə respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsinin xalqımız tərəfindən daim əziz tutulduğu bildirilib.

Vurğulanıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların qayğı ilə əhatə olunması təşkil edir. Qarabağ müharibəsi əlilləri və şəhid ailələri dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunub.

# Aprel döyüşlərinin və Vətən müharibəsinin qəhrəmanı - *astaralı döyüşçü Turan Həsənzadə*



... Onunla demək olar ki, hər gün qarşılaşıram, iş otaqlarımız üzbəüzdür. O, hər gün işə gələndə birinci mənim qapımı açar, hal-əhval tutduqdan sonra otağına keçər. Arıq, bəstəboy, həmişə üzündə təbəssüm olan bu gənc Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Lənkəran bölgəsi üzrə şöbəsinin baş məsləhətçisi Turan Həsənzadədir.

Vətən müharibəsi başlanandan sonra Turan bir müddət gözə dəymədi. Fikirləşdim yəqin ki, problemi var. Sonra öyrəndim ki, qonşum heç kimə xəbər vermədən könüllü Vətən müharibəsinə gedib...

Cəbhəyə könüllü gedənlər 44 günlük Vətən müharibəsi Azərbaycan Ordusunun qələbəsi ilə başa çatdıqdan sonra evlərinə qayıdırlar.

Yeni ilin ilk iş günü səhər saatlarında iş otağımın qapısını astaca döyərək, "Gəlmək olar" - deyib, hərbi geyimdə olan Turan Həsənzadə içəri daxil oldu. Onunla salamlaşıb görüşdükdən sonra "Dünən gəlmişəm. Hərbi komissarlığa gəlmişdim. Gəldim, sizinlə görüşüm, Yeni ilinizi təbrik edim" - deyərək, otağına keçdi...

Həsənzadə Turan Rafiq oğlu 1994-cü il iyunun 14-də Astara rayonunun Toradi kəndində anadan olub. O, 2011-ci ildə Lənkəran Dövlət Universitetinin Tarix-coğrafiya müəllimliyi fakültəsinə daxil olub, 2015-ci ildə həmin fakültəni bakalavr pilləsi üzrə bitirib. 2015-2016-cı illərdə həqiqi hərbi xidmətdə olub. 2017-ci ildən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Lənkəran bölgəsi üzrə şöbəsinin baş məsləhətçisi vəzifəsində çalışır, kiçik dövlət qulluqçusudur.



Kiçik çavuş Turan Həsənzadə 2016-cı ilin Aprel döyüşlərində Tərtər və Ağdam rayonunda, həmçinin Talış kəndi ərazisində, Vətən müharibəsində isə Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan və Laçının azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib.

Cəsur döyüşçü müharibədə göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.

Turan Həsənzadə ailəlidir, 1 oğlu var.

Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Prezident İlham Əliyev xalqa müraciətində deyib: "2020-ci il tarixdə bizim şanlı Qələbəmiz ili kimi qalacaq. Azərbaycan Ermənistanı 44 gün ərzində məğlub edərək öz doğma torpaqlarını işğaldan azad edib. Bu Qələbə Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaq. Bu, tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik."

Bəli, Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Azərbaycan xalqı öz liderinin - Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Bu gün hər bir azərbaycanlı Qələbə sevincini yaşayır. Bu Qələbənin qazanılmasında Turan Həsənzadə kimi minlərlə döyüşçülərimizin böyük rolu var. Biz onlarla fəxr edir, qürur duyuruq.

Vətən müharibəsində şəhid olanlara Allahdan rəhmət, yaralılara isə şəfa diləyirik.

**AZƏRTAC**

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Bizim üçün müharibə də, 30 illik işğal da arxada qalmışdır


Füzuli-Şuşa yeni avtomobil yolunun istifadəyə verilməsinə çox qalmayıb

## İlham Əliyev Azərbaycanı nikbin gələcəyə və yeni iqtisadi yüksəlişə kökləyir

*Əvvəli 1-ci səh.*

Azərbaycan Prezidentinin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformat çərçivəsində keçirilən müşavirədə dövlət başçısının giriş və yekun nitqləri, eləcə də bir sıra qurumların rəhbərlərinin çıxışları belə qənaətə gəlməyə imkan verir ki, işğalçı Ermənistan üzərində ildırım sürəti ilə qələbə çalan Azərbaycan inamla postmüharibə dövrünün quruculuq işlərinə başlayır. Müşavirədə Azərbaycan bir daha bütün dünyaya düşmənlə barışa getməyə qadir olduğunu, Qafqazda sülhü və əmin-amanlığı əbədi düşmənçilikdən üstün saydığını açıq nümayiş etdirdi. Biabırçı məğlubiyyətinin səbəblərini anlamaqda çətinlik çəkən işğalçı Ermənistan isə hələ ki, müharibəni, yoxsa sülh yolunu seçdiyini bəyan etməkdə çətinlik çəkir. Məğlub edilən dövlətin hərbi və siyasi liderləri revanş görüntüsü yaratmaq naminə reallıqlardan uzaq ideyalardan saman çöpü kimi yapışırlar.

Ermənistan sülhü altına qəfildən qoyulan tikanlı kirpi kimi qəbul edir və hələ də işğalçı abı-havasında mürgüləyərək onu diksindirib oyadanlara sifətini bozardır. Başa düşülən vəziyyətdir. Axı 100 ildən artıq biləklərinə faşizmin qandallarını vuran xalq 44 günlük müharibədəki məğlubiyyətindən sonra birdən-birə 180 dərəcə necə dönsün? Zaman lazımdır. Hələliksə faşizmin ətalət qüvvəsi erməni liderlərini və erməni xalqının böyük bir hissəsini arxasınca sürüməkdədir.

Amma vaxt yoxdur, ağıllanmaq lazımdır. Azərbaycan tərəfinin sülh səylərindən faydalanmaq erməni xalqı üçün yeganə çıxış yoludur. Sadəcə girsinlər internetə və Azərbaycan Prezidentinin sonuncu müşavirədəki nitqini diqqətlə oxuyub görsünlər ki, bizim üçün müharibə də, ermənilərin 30 illik işğalı da arxada qalmışdır. Bütün ölkə yüksək ruhla nikbin gələcəyə və yeni iqtisadi yüksəlişə köklənib.

Bu faktın özü bir daha sübut edur ki, ermənilər Azərbaycan xalqının böyüklüyünü dərk etməli və davranışlarını etik çərçivələrə uyğun qurmağa çalışmalıdırlar. Ermənistan dövlət səviyyəsində faşist ideologiyasına yoluxduğunu boynuna almalı, nasizmdən imtina etməlidir. Bu, regionda sülhə aparan ən qısa yoldur. Azərbaycan Prezidenti dəfələrlə deyib ki, Qarabağ erməniləri bizim vətəndaşlarımızdır, onlar bizimlə birlikdə firavan yaşayacaqlar. Lakin bu, elə başa düşülməli deyil ki, erməni faşist ideologiyası əvvəlki illərdə olduğu kimi yaşamaq hüququnu əldə edir.

Azərbaycan Prezidenti müşavirədəki çıxışında işğal edilmiş bütün torpaqlarda vandalizm aktlarının törədildiyinə, bütün tarixi abidələrimizin, məscidlərimizin dağıdıldığına və təhqir edildiyinə, şəhər və kəndlərimizin viran qoyulduğuna, yerləyeksan edildiyinə bir daha diqqət çəkdi. Biz sülhə gedirik və həm də tarix boyu erməni faşistlərinin cinayətlərindən danışmaq və qatilləri cəzalandırmaq haqqını özümüzdə saxlayırıq. Biz yaxşı bilirik ki, erməni faşizmindən erməni xalqı da əziyyət çəkir.

Bu üzdən onlar ipək kimi yumşaq olmalı və Azərbaycanın sülh təkliflərini minnətdarlıq hissli ilə qəbul etməlidir. Biz bu tendensiyanı hələ müşahidə etməsək də, ümidimizi də üzmürük. Baxmayaraq ki, biz erməni faşistlərinin cinayətlərinə göz yummuruq və heç nəyi unutmuruq. Ermənistan bilməlidir ki, Azərbaycan bunu erməni tərəfinin qara qaşına, ala gözünə görə yox, regionda əmin-amanlığın, Qafqazda sülhün bərpası naminə edir.

Dövlət başçısı çıxışında bu vacib məqama bir daha toxunaraq Ermənistanla Azərbaycan arasında fərqin nədən ibarət olduğunu belə izah etdi: "...Başa düşürük ki, orada insanlar yaşayır, başa düşürük ki, indi qış gəlib, hava soyuqdur. Orada müəyyən işlər görülməlidir ki, bu qış orada yaşayan ermənilər üçün problem yaratmasın". İlham Əliyev eyni zamanda Ermənistanın 30 il bizim suyumuzu kəsdiyini, 100 min hektar torpağımızı susuz qoyduğunu da xatırlatdı: "Amma mən yenə də deyirəm, biz heç vaxt onların səviyyəsinə düşməməliyik. Bu gün Dağlıq Qarabağda yaşayan insanlar bizim vətəndaşlarımızdır. Mən demişəm, onlar görəcəklər ki, Azərbaycan rəhbərliyi altında yaxşı yaşayacaqlar".

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

## Ötən il 12 min şəxs özünüməşğulluq proqramına cəlb olunub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən 2020-ci ildə 12 min şəxs özünüməşğulluq proqramına cəlb olunub.




Onların sırasına şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları, əlilliyi olan şəxslər, məcburi köçkünlər, aztəminatlı, habelə çoxuşaqlı ailələrin üzvləri, ünvanlı sosial yardım alan ailələrin üzvləri daxildir. Proqrama cəlb olunanlara biznes planlarına uyğun olaraq mal və materiallar formasında aktivlər verilməklə, onlar üçün kiçik ailə təsərrüfatları yaradılır.

Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi ilə birgə icra olunan "Sosial Bağlar" layihəsi də özünüməşğulluq proqramının genişlənməsinə mühüm dəstəkdir.

Layihə çərçivəsində ölkənin müxtəlif rayonlarında 2018-ci ildə 125 ailə, 2019-cu ildə 250 ailə üçün intensiv meyvə bağları salınıb. 2020-ci ildə də layihə üzrə 11 rayonda daha 250 aztəminatlı ailə üçün intensiv meyvə bağlarının salınması işləri aparılıb.

## Qazi və qardaşı üçün kiçik təsərrüfatlar yaradılacaq

Vətən müharibəsi iştirakçıları ilə bağlı sosial dəstək tədbirləri müharibədə yaralanmış Xankişiyev Mirqəfər İlqar oğlunu və ailəsini də əhatə edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları Mirqəfər və ailəsi ilə görüşüblər. Nazirlikdən verilən məlumatda bildirilir ki, qazinin istəyinə uyğun olaraq sağalandan sonra onun özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyat aparılıb. Mirqəfərin qardaşı maşın ustası işləyir və avtoçilingər peşəsi üzrə xidmət sahəsini yaratmaq üçün o da özünüməşğulluq proqramına cəlb edilmək istəyib. Onun da qeydiyyatı aparılıb və yaxın vaxtlarda hər ikisi üçün proqramın dəstəyi ilə kiçik təsərrüfatlar yaradılacaq.

Qazinin atası vəfat edib, anası əlilliyə görə pensiya alır. Mirqəfərin əlilliyi də qiymətləndiriləcək, əlillik təyin olunduğu halda aylıq sosial ödənişlərlə təmin olunacaq.

Saatlıda yaşayan ailə 9 nəfərdən (qazinin anası, özü, həyat yoldaşı və iki usağı, qardaşı, qardaşının həyat yoldaşı və iki usağı) ibarətdir. Ailəyə gələcəkdə digər istiqamətlərdə də sosial dəstək verilməsi üçün işlər aparılacaq.

## Ermənistanın təcavüzü nəticəsində əmlaklarına ziyan dəymiş əhaliyə maddi yardımların ödənilməsi davam edir

Ermənistan silahlı qüvvələrinin Azərbaycana hərbi təcavüzü nəticəsində əmlaklarına ziyan dəymiş mülki əhaliyə maddi yardımların ödənilməsinə başlanılıb.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin noyabrın 6-da "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" sərəncamına əsasən Baş nazirin rəhbərliyi altında dövlət komissiyası yaradılıb. Dövlət komissiyasının tərkibində təşkil olunmuş işçi qruplar Ermənistanın təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, sahibkarlıq fəaliyyəti subyektlərinə, nəqliyyat vasitələrinə, kənd təsərrüfatı məhsulları və texnikasına, o cümlədən əhaliyə məxsus tələf olmuş heyvanlar üzrə dəymiş ziyanın qiymətləndirilməsini həyata keçiriblər.

Dövlət başçısının 2020-ci il dekabrın 14-də imzaladığı "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanın ödənilməsi ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamda isə dağıdılmış və ya qəzalı vəziyyətə düşmüş yaşayış evləri üzrə məişət əşyalarına dəymiş ziyanla bağlı hər bir ailəyə 6000 (altı min) manat, şəxsi əşyalara dəymiş ziyanla bağlı hər bir ailə üzvünə 1500 (min beş yüz) manat, digər ziyan dəymiş yaşayış evləri üzrə hər bir ailəyə 1000 (bir min) manat məbləğində maddi yardımın edilməsi qərara alınıb. Artıq mülki əhaliyə dəymiş ziyana görə nəzərdə tutulmuş vəsaitlərin ödənilməsinə başlanılıb. Maddi yardımların ödənilməsi yaşayış evlərinin sahiblərinə və ya onların qanuni nümayəndələrinə banklar vasitəsilə həyata keçirilir.

Digər keçmiş cəbhəyanı rayonlar kimi Ağcabədidə də Ermənistan silahlı qüvvələrinin artilleriya atəşi nəticəsində mülki əhaliyə, evlərə, dövlət əmlakına, infrastruktur obyektlərinə ziyan dəyib. Ağcabədi şəhəri, Hindarx qəsəbəsi, Sarıcalı, Arazbar, Sarvanlar, Muğanlı, Şərəfxanlı, Minaxorlu, Qaraxanlı, İmamqulubəyli, Köyük, Hacılar, Yuxarı Qiyaməddinli, Boyat, Rəncbərlər kəndlərində 8 ev tamamilə dağılıb, 485 evə isə qismən ziyan dəyib. Evlərinə ziyan dəymiş 493 nəfər rayon sakininin plastik kart hesabına 584 min manat məbləğində vəsait köçürülüb. Plastik kartlar "Kapitalbank"ın rayon filialı tərəfindən sakinlərə təqdim edilib.

Növbəti mərhələdə isə mülki əhaliyə, dövlətə və sahibkarlıq fəaliyyəti subyektlərinə məxsus dağıdılmış və qəzalı vəziyyətə salınmış, qismən ziyan dəymiş yaşayış və qeyri-yaşayış sahələrinin təmiri, bərpası işlərinin, həmçinin nəqliyyat vasitələrinə, kənd təsərrüfatı məhsulları və texnikasına, eləcə də əhaliyə məxsus heyvanlar üzrə dəymiş ziyanın aradan qaldırılması üçün tədbirlərə başlanılacaq.

## Mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına maraq çoxdur

Kürdəmir rayonunda heyvandarlıqla məşğul olan fermerlər və fiziki şəxslər mal-qaranın cins tərkibinin süni mayalandırma yolu ilə dəyişdirilərək daha məhsuldar heyvanlarla əvəz edilməsinə maraq göstərirlər və təsadüfi deyil ki, ötən il bu istiqamətdə xeyli iş görülüb.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinə istinadən AZƏRTAC xəbər verir ki, Kürdəmirdə hazırda 58 min baş iribuynuzlu mal-qara var və yenicə yola saldığımız 2020-ci ildə süni mayalandırma yolu ilə 1741 baş cins bala alınıb. Alınan buzovlar əsasən "Simmental", "Holşteyn-friz", "Şarole" və "Şvis" cinslərindəndir.

Qeyd edək ki, rayonda 6 peşəkar süni mayalandırma texniki var. Onlar keçən il 2849 baş inəkdə süni mayalandırma aparıblar. Fermerlər və fiziki şəxslərə alınan hər baş cins buzova görə dövlət tərəfindən 100 manat subsidiya verilir.



## İşıqlı Azərbaycan

### Yeni stansiya və yarımstansiyalar ölkəmizin elektrik enerjisi sistemini daha da gücləndirib

*Əvvəli 1-ci səh.*

Mingəçevir şəhərində yenidən qurulmuş "Azərbaycan" İES-in açılış mərasimində Prezident İlham Əliyev demişdir: "Hər bir ölkənin energetika sistemi onun döyünən ürəyidir, əsas motorudur. Bu olmasa, heç nə olan deyil. Bu olmasa, heç bir inkişafdan, heç bir investisiya qoyuluşundan söhbət gedə bilməz. Ona görə enerji olmayan yerdə inkişaf yoxdur".

Aprelin 20-də "Azərenerji" ASC-nin yenidən qurulan Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksinin açılış mərasimi də sahənin önəmli hadisələrindən biridir. Belə ki, 1986-cı ildə istifadəyə verilən və o vaxtdan təmir edilmədiyinə görə yararsız vəziyyətə düşən bina əsaslı təmir olunaraq müasir memarlıq üslubunda və yüksək səviyyədə yenidən qurulmuşdur. Açılış mərasimində Prezident İlham Əliyev iştirak etmişdir.

Buradakı mərkəz vasitəsilə enerji sistemi avtomatik idarə edilir, idxal-ixrac prosesləri, tənzimləmələr həyata keçirilir. Əməliyyatlar insan müdaxiləsi olmadan məsafədən icra edilir. Yenidənqurmadan sonra "Azərenerji" ASC-nin Mərkəzi aparatı bu binaya köçürülüb. Burada əməkdaşların fəaliyyəti üçün bütün zəruri avadanlıq quraşdırılıb.

Koronavirus pandemiyasının dünyanı sınağa çəkdiyi bu dövrdə də Prezident İlham Əliyev heç bir sosial və infrastruktur layihəsinin ixtisar edilməyəcəyini bildirmişdir. Təkcə iyun ayının birinci yarısında dövlət başçısının iştirakı ilə ölkədə üç yeni elektrik yarımstansiyasının istifadəyə verilməsi bunun təsdiqidir. Yarımstansiyalardan ikisi Prezidentin Tərtər və Ağcabədi bölgələrinə səfəri çərçivəsində iyunun 3-də açıldı, üçüncüsü isə paytaxtın Xətai rayonunda iyunun 11-də istismara daxil oldu.

Beləliklə, Azərbaycanda cəmi 9 gün ərzində əhaliyə daha 3 yeni yarımstansiya xidmət etməyə başladı. Bu da ölkəmizin elektrik enerjisi sisteminin gündən-günə daha da gücləndiyinin, keyfiyyətli və dayanıqlı olduğunun aydın göstəricisidir.

Sözügedən enerji obyektlərindən biri yenidənqurmadan sonra istifadəyə verilən 110/35/6 kilovoltluq "Tərtər" elektrik yarımstansiyasıdır. Qurğu Tərtər şəhərinin sosial-iqtisadi təyinatlı obyektlərini, eləcə də ətraf kənd və qəsəbələri, hərbi hissələri, suvarma sistemlərini fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin edəcək. Başqa sözlə, yarımstansiyanın istismara verilməsi əhali və qeyri-əhali qruplarından ümumilikdə 18 min 393 abonentin elektrik enerjisinin təchizatını daha da yaxşılaşdıracaq.

"Tərtər" yarımstansiyası Naftalan və Bərdə hava xətləri vasitəsilə əlaqələndirilməklə "Azərbaycan" İstilik Elektrik Stansiyası və "Gəncə" yarımstansiyası arasında dairəvi elektrik təchizat sistemınə qoşulub.

Daha bir enerji obyekti 110/35/10 kilovoltluq "Ağcabədi-2" elektrik yarımstansiyasıdır. İstehlakçıların elektrik təchizatının yaxşılaşdırılması məqsədilə Ağcabədi rayonu ərazisində 35 kilovoltluq yarımstansiyada əsaslı yenidənqurma işləri aparılıb və onun gücü artırılıb.

Yeni yarımstansiya beynəlxalq standartlara cavab verən müasir tipli elektrik avadanlıqları, elektron tipli rele mühafizəsi və avtomatik sistemlərlə təchiz edilib, məsafədən idarə olunan SKADA dispetçer sisteminə qoşulub. Yarımstansiyanın 330 kilovoltluq "İmişli" və "Ağcabədi" qovşaq yarımstansiyaları ilə əlaqələndirilməklə dairəvi elektrik təchizat sxeminə qoşulması təmin edilib. Bu, istehlakçıların, xüsusən də əhalinin enerji təchizatının dayanıqlılığını və təhlükəsizliyini artırıb.

Paytaxtın Xətai rayonunda istifadəyə verilən "Əhmədli" yarımstansiyası da 110/35/10 kilovoltluqdur. Yarımstansiya tamamilə yenidən qurulub, burada bütün qurğular ən müasirləri ilə əvəzlənib. Yenidənqurma zamanı yarımstansiya üçün təzə idarəetmə binası da inşa olunub. Yarımstansiya Suraxanı, Xətai və Nizami rayonlarında əhalini, sosial-iqtisadi və sənaye müəssisələrini fasiləsiz elektrik enerjisi ilə təmin edir.

Ümumiyyətlə, son illərdə ölkənin şəhər və rayonlarında istifadəyə verilən elektrik stansiyaları və yarımstansiyalar yerləşdikləri ərazinin iqtisadiyyatına və orada yaşayan əhalinin sosial həyatına böyük dəstək göstərir. Son bir ildə təkcə Abşeron regionunda 12 yarımstansiya işə salınıb.

Azərbaycanda həyata keçirilən sənayeləşmə prosesi, əhalinin artım tempi, sosial infrastrukturun genişlənməsi, insanların yaşayış səviyyəsinin yüksəlməsi elektroenergetika sektorunun daim inkişaf etdirilməsi vəzifəsini qarşıya qoyur. Uzun illərdir işğal altında olan torpaqlarımızın azad edilməsindən sonra elektrik enerjisinə tələbatın çoxalması bu sistemdə aparılan tikinti və yenidənqurma işlərinin daha da sürətləndirilməsini şərtləndirir.

Bu baxımdan tikilməkdə olan 1000 meqavat yükötürmə gücündə 330, 220, 110 kilovoltluq "Qobu" yarımstansiyası və 385 meqavatlıq "Qobu" elektrik stansiyası mühüm əhəmiyyət kəsb edir. Belə ki, "Qobu" enerji layihəsi Bakının və Abşeronun elektrik enerjisi ilə təchizatının dayanıqlılığını və etibarlılığını maksimum səviyyəyə çatdıracaq. Bununla ölkənin enerji sistemində bir mənbədən asılılıq aradan qaldırılmış olacaq. Yeni regionlardakı elektrik stansiyalarının Bakıya yönəldilən yükü azalacaq. Həmin stansiyalarda istehsal olunan enerji bölgələrin ehtiyacına sərf ediləcək.

Prezident İlham Əliyev 2020-ci il avqustun 21-də yarımstansiyanın tikintisi ilə tanış olmuş və elektrik stansiyasının təməlini qoymuşdur.

Yaradılan yeni mənbə Abşeron enerji sistemində tənzimləyici generasiya gücü funksiyasını daşıyacaq. "Qobu" yarımstansiyasının xüsusi özəlliyi ondan ibarətdir ki, o, Bakıda tikilən ilk 330 kilovoltluq yarımstansiya olacaq. Ən başlıcası, yeni obyekt ölkənin strateji yarımstansiyası olan 500 kilovoltluq "Abşeron" yarımstansiyasının əvəzedicisi funksiyasını daşıyacaq. Bu obyektlər, eləcə də yaxın illərdə respublikada fəaliyyətə başlayacaq bir sıra qeyri-neft sənayesi müəssisələrinin, o cümlədən Ələt qəsəbəsinin yaxınlığında yaradılacaq "Azad İqtisadi Zona"nın etibarlı elektrik enerjisi ilə təchizatında mühüm rol oynayacaq.

Xatırladaq k, 1990-cı illərdə xaricdən elektrik enerjisi alan Azərbaycan bu gün onu 3 ölkəyə ixrac edir. Azərbaycan bundan sonra da enerji təminatı sahəsində heç kimdən asılı olmayacaq. Çünki elektrik enerjisi sistemi bax, beləcə getdikcə daha da gücləndirilir və təkmilləşdirilir.

***Flora SADIQLI, "Azərbaycan"***

## Barama istehsalının səmərəli təşkili mövzusunda onlayn müşavirə keçirilib

Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə "Barama istehsalının səmərəli təşkili" mövzusunda onlayn müşavirə keçirilib. Onlayn müşavirədə kənd təsərrüfatı naziri İnam Kərimov, Azərbaycan Sənaye Korporasiyasının baş direktoru Kamran Nəbizadə və nazirliyin tabeli qurumlarının nümayəndələri iştirak edib.

Tədbirdə qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən aqrar sahənin inkişafı prioritet istiqamət kimi elan edilib. Bildirilib ki, ardıcıl həyata keçirilən tədbirlər nəticəsində aqrar sahə özünün yeni inkişaf mərhələsinə qədəm qoyub və bu sahədə inkişaf tempi davam edir. Azərbaycanda kənd təsərrüfatının davamlı inkişafı sahəsində işlər davam etdirilir.

Onlayn müşavirədə Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illəri əhatə edən Dövlət Proqramında qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində görülən işlər və əldə edilən nəticələr müzakirə olunub. Bildirilib ki, dövlət dəstəyi nəticəsində ölkədə baramaçılıq sahəsinə maraq artıb. Tədbirdə yaş barama istehsalı və emalı, keyfiyyətli ipəkqurdu toxumu (qrena) istehsalı, aqrozootexniki qaydalarına uyğun tut ipəkqurdlarının bəslənməsinə riayət etməklə barama istehsalının artırılması məsələləri müzakirə olunub. Onlayn müşavirədə baramaçılıq sahəsində xəstəliklərə qarşı effektiv mübarizənin təşkili, kümçülərə dövlət dəstəyi, barama istehsalı ilə bağlı maarifləndirmə prosesinin gücləndirilməsi məsələlərinə də toxunulub.

Baramaçılıqla bağlı tədbirlər planına əsasən işlərin davamlı təşkili, kümxanaların təlimata uyğun olaraq hazırlanması, çəkil bağlarına qulluq işləri və fermerlərin maarifləndirilməsi istiqamətində görülən işlər barədə fikir mübadiləsi aparılıb.

Müşavirədə baramaçılığın inkişafı ilə bağlı səsləndirilən təkliflər qeydə alınıb, qaldırılan məsələlərin operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

## Şəkidə payızlıq dən bitkilərinin əkin sahəsi 732 hektar artıb

Respublikanın ən iri taxılçılıq rayonlarından olan Şəkidə 2021-ci ilin məhsulu üçün payızlıq dən bitkilərinin səpini başa çatıb.



Rayonda builki mövsüm üçün 65 min hektar sahədə payızlıq dənlilərin səpini proqnozlaşdırılsa da, torpaq mülkiyyətçiləri 66 min 389 hektar sahəyə toxum səpiblər. Taxıl əkinlərinin 36 min 180 hektarını buğda, 29 min 923 hektarını arpa sahələri təşkil edir. Eyni zamanda bu il rayonda 286 hektar sahəyə yaşıl yem üçün xəsil arpa da səpilib. Payızlıq dənlilərin əkin sahəsi əvvəlki mövsümlə müqayisədə 732 hektar artıb. Bu barədə AZƏRTAC-a Şəki Şəhər Statistika İdarəsindən məlumat verilib.

Xatırladaq ki, ötənilki mövsümdə rayonda 65 min 471,7 hektar sahənin məhsulu biçilib, 198 min 718 ton taxıl istehsal olunub. Hər hektardan orta məhsuldarlıq 30,3 sentner təşkil edib.

# Biz birlikdə güclüyük!

## Vaksinasiya aparılandan sonra da koronavirusdan qorunma qaydalarını gözləmək lazımdır




Yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə məqsədilə ölkəmizə gətiriləcək peyvəndlərə böyük ümidlər bəslənilir. Lakin peyvəndlərin gətirilməsi və onun vaksinasiyasının başlanılması da heç də arxayınçılıq üçün əsas vermir.

AZƏRTAC xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayeva deyib.

Onun bildirdiyinə görə, peyvəndin vurulması orqanizmdə immunitetin inkişaf etməyə başlaması deməkdir: "Birinci doza vurulandan 14-21 gün sonra ikinci doza vurulacaq. İkinci dozadan sonra virusa qarşı orqanizmdə yaranan anticisimlərin əmələ gəlməsini gözləmək lazımdır. Lakin bununla birlikdə vaksinasiya prosesindən bir müddət sonra da tibbi maska taxılmalı, əl gigiyenası və sosial məsafə ilə əlaqədar qaydaya əməl olunmalıdır, çünki ikinci doza alınana qədər, daha dəqiq desək, immunitet yaranana qədər təhlükənin sovuşmasına bel bağlamaq olmaz. Orqanizmdə infeksiyaya qarşı immunitet yaranana qədər gözləmək və qaydalara əməl etmək lazımdır".

## Vaksinasiyanın təşkili və əlavə təsirlərinin idarə edilməsi ilə əlaqədar təlimlər keçirilir

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) tərəfindən ölkəmizdə aparılacaq vaksinasiyanın təşkili və əlavə təsirlərinin idarə edilməsi ilə əlaqədar təlimlərə başlanılıb.



AZƏRTAC xəbər verir ki, TƏBİB-in departament rəhbəri Elmir Bəşirov deyib: "Respublikamızda vaksinasiyanı aparacaq həkim və tibb bacılarından ibarət briqadalar prosedurun aparılma qaydası ilə əlaqədar təlimatlandırılır. Ölkəmizdə vaksinasiya 150 məntəqədə aparılacaq. Həmin məntəqələrdə xəstənin qeydiyyatı, şikayətlərin qəbulu, qızdırmanın ölçülməsi, kompüterdə və jurnalda qeydiyyatın aparılma qaydası barədə məlumat verilir".

Mütəxəssislərin dediyinə görə, elmi araşdırmalara əsasən xəstəliklərdə iki virusun eyni vaxtda insan orqanizminə mənfi təsir göstərməsi faktı yoxdur. Ümid etməyə dəyər ki, qış aylarından sonra dünya sağlam həyata qayıtmaq imkanı əldə edəcək.

## COVID-19-dan yeganə xilas yolu peyvəndləmənin aparılmasıdır



Bəşəriyyət üçün böyük təhlükə mənbəyi olan pandemiya və epidemiyaların qarşısının alınmasında peyvəndlər həmişə "qızıl açar" rolu oynayıb. Bu gün də belə bir həqiqəti qəbul etməliyik ki, yeni növ koronavirusla (COVID-19) mübarizədə də peyvənddən səmərəli yol yoxdur. Az qala bir ilə yaxındır ki, bütün dünyanın başı üstünü alan dəhşətli və qorxunc infeksiyadan məhz bu yolla xilas olmaq mümkündür.

AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin Səhiyyə komitəsinin sədrinin müavini, tibb elmləri doktoru Rəşad Mahmudov deyib.

Onun verdiyi məlumata görə, müxtəlif qabaqcıl ölkələrdə kütləvi şəkildə peyvənd aparılmasına başlanılması problemin nəzarət altına alınması üçün onun yeganə vasitə olduğunu göstərir. Tibbi mərkəzlərin və mütəxəssislərin gəldiyi qənaət də bunu təsdiq edir.

"Təəssüf ki, bəzi hallarda bu mühüm və vacib kampaniya aparılmasına başlanılmamış hər hansı bir ölkədə baş verən bir və ya iki ölüm halını heç bir mütəxəssis rəyi olmadan peyvəndlə əlaqələndirmək qətiyyən düzgün deyil. Belə yanaşma əhali arasında çaşqınlıq yaranmasına səbəb olur. Bu, bir faktdır ki, COVID-19 infeksiyası yayılmamışdan əvvəl də dünyada hər gün həyatını itirən insanlar vardı. Həmin ölüm halı ilə əlaqədar əlində ciddi və əsaslandırılmış fakt olmadan onun peyvəndlə əlaqələndirilməsi həqiqəti əks etdirmir, çünki belə bir qənaətə xüsusi tibbi-ekspert qrupunun rəyindən sonra gəlmək olar. Hələlik indiyə qədər koronavirus peyvəndinin həyati təhlükəsi ilə əlaqədar hər hansı dəqiq məlumat yoxdur. Dolaşan bəzi məlumatlar isə daha çox spekulyativ xarakter daşıyır, tibbi mərkəz və mütəxəssislərin rəyinə əsaslanmır və qətiyyən həqiqəti əks etdirmir", - deyə komitə sədrinin müavini bildirib.

# Ölkəmiz koronavirus sınağından inamla çıxır

*Əvvəli 1-ci səh.*

### Sərt karantin rejimi bəhrəsini verir




Sevindirici haldır ki, son zamanlar ölkəmizdə koronavirusa yoluxma statistikasında müsbət dinamika müşahidə olunmaqdadır. İnfeksiyaya gündəlik yoluxma halları xeyli aşağı düşüb. Xəstəlikdən sağalanların sayı gündəlik yoluxanların sayını üstələyib. Bu da xəstəxanalardakı aktiv xəstə saylarının aşağı düşməsi və səhiyyənin yükünün nisbətən azalması deməkdir. Son günlər qeydə alınan müsbət dəyişikliklər karantinin sərtləşdirilməsinin düzgün qərar olduğunu təsdiqləyir.

Respublikamızda qlobal böhranın aradan qaldırılması istiqamətində qəbul edilən bütün qərarlar, görülən işlər infeksiyanın nəzarət altında saxlanmasına, əhalinin təhlükəsizliyinin və sağlamlığının etibarlı təmininə yönəlib. Azərbaycan dövləti vətəndaşların sağlamlığını qorumaq məqsədilə lazim olan bütün tədbirləri qətiyyətlə həyata keçirir.

COVID-19 infeksiyası yayılmağa başladığı ilk günlərdən, virus hələ sərhədlərimizə çatmadan öncə ölkəmizdə bütün istiqamətlər üzrə zəruri qabaqlayıcı tədbirlərə start verildi. Prezident İlham Əliyevin sərəncamı ilə ötən il fevralın 27-də profilaktik və təxirəsalınmaz qərarların həyata keçirilməsi üçün Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət qurumlarından ibarət Operativ Qərargah yaradıldı. Həmin tarixdən başlayaraq bu xəstəliklə mübarizə bir neçə mərhələdən keçdi. Qərargahın fəaliyyəti Ümumdünya Səhiyyə Təşkilatının, həkimlərimizin və qonşu ölkələrin təcrübəsinə, aparılan protokollara uyğun olaraq quruldu. Bütün potensial imkanlar - insan resursları, maliyyə resursları və inzibati resurslar səfərbər olundu.

Qısa müddət ərzində görülmüş operativ tədbirlər nəticəsində səhiyyə infrastrukturu pandemiya ilə mübarizəyə istiqamətləndirildi, laboratoriyaların sayı artırıldı, maska və dərman qıtlığı aradan qaldırıldı, yeni süni tənəffüs aparatlarının (ECMO) alınması təmin edildi. Xüsusi olaraq bu xəstəliklə mübarizə üçün qısa müddət ərzində modul tipli xəstəxanalar yaradıldı, mövcud xəstəxanaların formatı və reanimasiya şöbələrinin şəraiti dəyişdirilərək koronavirusla mübarizəyə cəlb edildi. Ümumilikdə respublikamızda 10-dan çox yeni müasir xəstəxana tikildi ki, bunun sayəsində virusa yoluxan xəstələr üçün 10 mindən çox çarpayı yeri yaradıldı.

Ötən il ərzində karantin şərtləri bir neçə dəfə dəyişdirildi. Ümumi karantin rejimindən sərtləşdirilmiş karantin rejiminə keçildi. Bu da təbii olaraq həm iqtisadiyyatda, həm sosial sferada, həm də insanların davranışlarında məhdudiyyətlərə səbəb oldu. Buna görə də pandemiyadan zərər çəkən insanların maddi və mənəvi cəhətdən dəstəklənməsi, ölkə iqtisadiyyatına dəyən ziyanın aradan qaldırılması üçün dövlət tərəfindən mühüm tədbirlər həyata keçirildi. Karantin dövrü ərzində pandemiyadan əziyyət çəkən insanlara maddi və sosial yardımlar edildi. Prezident İlham Əliyevin sərəncamı əsasında pandemiyanın iqtisadiyyata, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə dəyəri 2,5 milyard manata çatan sosial-iqtisadi dəstək paketi qəbul edildi. Xüsusilə işsiz və iş yerini müvəqqəti itirmiş şəxslərə dörd dəfə 190 manat birdəfəlik ödəmə verildi. Bu da toplam olaraq 450 milyon manat vəsait deməkdir. Koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi məqsədilə Prezidentin fərmanı ilə yaradılmış xüsusi fonda isə 114 milyon manatdan artıq vəsait yığılıb.

### Pandemiya ilə bağlı vəziyyət tam nəzarətdədir

Azərbaycan yanvarın 18-dək sərtləşdirilmiş karantin rejimində olacaq. Ümumi karantin rejiminin müddəti yanvar ayının 31-dək artırılıb və bu istiqamətdə ciddi nəzarət var. Peyvənd Azərbaycana gətiriləndən sonra bu xəstəliklə mübarizədə, onun qarşısının alınmasında xeyli irəliləyişlərin olacağı gözlənilir.

Yanvarın 6-da 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatdakı müşavirədə Prezident İlham Əliyev ölkəmizdə pandemiya ilə bağlı vəziyyətin tam nəzarətdə olduğunu vurğuladı: "Koronavirus, əlbəttə ki, bütün dünya üçün çox böyük sınaq idi. Hesab edirəm ki, Azərbaycan bu sınaqdan şərəflə çıxır. Vəziyyət tam nəzarətdədir. Operativ tədbirlər nəticəsində yeni xəstəxanalar tikildi, laboratoriyalar alındı. Həkimlər səfərbər olundu. Koronavirus xəstələrinə qulluq edən həkimlərin maaşları artırıldı, onlar əməkhaqlarının 3-5 misli həcmində maaş alırlar. Çox böyük sosial paket təqdim edildi. Bir neçə milyard manat dəyərində sosial paket koronavirusdan əziyyət çəkən insanlara, o cümlədən qeyri-formal çalışan və işsiz vətəndaşlara yardım kimi göstərildi".

Dövlət başçısı peyvəndlənmə barədə məsələyə də toxundu: "Bu gün biz peyvəndi gözləyirik. Ümid edirik ki, peyvənd bu ay ərzində Azərbaycana gətiriləcək. Hər halda bütün kontraktlar imzalandı. Peyvəndin bir qədər gec gətirilməsi bizdən asılı deyil. Ondan sonra insanlar kütləvi qaydada bu peyvənddən istifadə edəcək və canımız bu xəstəlikdən qurtaracaq".

Bəli, hazırda COVID-19 pandemiyası ilə mübarizə məqsədilə ölkəmizə gətiriləcək peyvəndlərə böyük ümidlər bəslənilir. Lakin peyvəndlərin gətirilməsi və onun vaksinasiyasının başlanılması da heç də arxayınçılıq üçün əsas vermir.

TƏBİB-in xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayevanın bildirdiyinə görə, peyvəndin vurulması orqanizmdə immunitetin inkişaf etməyə başlaması deməkdir: "Birinci doza vurulandan 14-21 gün sonra ikinci doza vurulacaq. İkinci dozadan sonra virusa qarşı orqanizmdə yaranan anticisimlərin əmələ gəlməsini gözləmək lazımdır. Lakin bununla birlikdə vaksinasiya prosesindən bir müddət sonra da tibbi maska taxılmalı, əl gigiyenası və sosial məsafə ilə əlaqədar qaydaya əməl olunmalıdır. İkinci doza alınana qədər, daha dəqiq desək, immunitet yaranana qədər təhlükənin sovuşmasına bel bağlamaq olmaz. Orqanizmdə infeksiyaya qarşı immunitet yaranana qədər gözləmək və qaydalara əməl etmək lazımdır".

***Xəyalə MURADLI, "Azərbaycan"***

















## Karantin rejimi qaydalarına zidd fəaliyyət göstərən çayxana aşkar edilib

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Quba regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, Xaçmaz Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbir zamanı rayonun Yergüc kəndi ərazisində yerləşən çayxananın mövcud karantin qaydalarına zidd olaraq fəaliyyət göstərdiyi məlum olub. Obyektə baxış zamanı orada olan 18 müştərinin və obyekt sahibi İ.Gülməmmədovanın sərtləşdirilmiş karantin rejimi qaydalarını pozduqları müəyyən edilib. Qanunvericiliyə uyğun olaraq həmin şəxslər saxlanılaraq polis şöbəsinə gətiriliblər.

Onların barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə cərimə protokolları tərtib olunub.

## Postlardan icazəsiz keçməyə cəhd göstərən 2258 nəqliyyat vasitəsi müəyyən olunaraq geri qaytarılıb



Koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Daxili İşlər Nazirliyinin (DİN) hərbi qulluqçuları və polis əməkdaşları tərəfindən nəzarət-profilaktiki yoxlamalar davam etdirilir.

DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yanvarın 8-də nəzarət-profilaktik tədbirlər nəticəsində postlardan müvafiq qaydada icazə almadan keçməyə cəhd göstərən 2258 nəqliyyat vasitəsi müəyyən olunaraq geri qaytarılıb. Ölkə üzrə karantin rejimi qaydalarını pozan 3147 nəfər barəsində inzibati tənbeh tədbiri tətbiq olunub.

Eyni zamanda, ev şəraitində müalicə təyin edilən 12 nəfər aktiv COVID-19 xəstəsi ictimai yerlərdə müəyyən olunub saxlanılaraq evə qaytarılıb. Onların barələrində Cinayət Məcəlləsinin 139-1.1-ci (epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanıb. Hazırda istintaq araşdırmaları davam etdirilir.

DİN vətəndaşlardan izolyasiya tədbirlərini anlayışla qarşılamalarını, karantin rejimi qaydalarına riayət olunmasını xahiş edir.

## İcarədar inzibati qaydada cərimələnib

Sabirabad Rayon Polis Şöbəsinin əməkdaşları koronavirus pandemiyasının yayılmasının qarşısının alınması istiqamətində genişmiqyaslı tədbirləri davam etdirirlər.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a bildiriblər ki, Sabirabad RPŞ-nin əməkdaşları tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində rayon ərazisində karantin qaydalarına zidd olaraq fəaliyyət göstərən çayxana aşkar edilib.

Çayxananın icarədarı və orada olan 11 nəfər barəsində inzibati qaydada cərimələr tətbiq olunub.

## Koronavirusa ən çox yoluxma halları Binəqədi, Xətai və Yasamal rayonlarında qeydə alınıb

Bakı şəhəri üzrə yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxma göstəriciləri açıqlanıb. AZƏRTAC koronavirusinfo.az saytına istinadla xəbər verir ki, paytaxtın rayonları arasında ən yüksək yoluxma göstəricisi Binəqədi rayonunda qeydə alınıb. Belə ki, paytaxt üzrə yoluxma hallarının 15 faizi həmin rayonun payına düşür. Bakı şəhərinin digər rayonlarına gəlincə, yoluxma hallarının 13,1 faizi Xətai, 12,2 faizi Yasamal, 10,7 faizi Sabunçu, 7,9 faizi Nəsimi, 8,2 faizi Suraxanı, 8,2 faizi Nərimanov, 7 faizi Nizami, 6,8 faizi Xəzər, 5,4 faizi Qaradağ, 5 faizi Səbail, 0,5 faizi Pirallahı rayonlarında qeydə alınıb.

Qeyd edək ki, ölkəmizdə koronavirusa ən çox yoluxma faktı Bakı şəhərində müşahidə olunub. Belə ki, ümumi yoluxma hallarının 52 faizi paytaxtda qeydə alınıb.

## COVID-19-dan daha 1682 nəfər sağalıb, 633 nəfər isə yoluxub




Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 1682 nəfər müalicə olunaraq sağalıb, 633 yeni yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 21 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 224 min 50 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 207 min 88 nəfər müalicə olunaraq sağalıb, 2890 nəfər vəfat edib. Aktiv xəstə sayı 14 min 72 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 259 min 555 test aparılıb. Dünənki test sayı isə 9264-dür.

# Misirin "Əl Vəsilə" nəşri Şuşanın Azərbaycan mədəniyyətinin paytaxtı elan edilməsindən yazır

Misirin "Əl Vəsilə" nəşrində "Azərbaycan Prezidenti işğaldan azad olunmuş Şuşanı mədəniyyət paytaxtı elan edib" sərlövhəli məqalə dərc edilib.




AZƏRTAC xəbər verir ki, misirli jurnalist Məhəmməd Rafət Fərağın müəllifi olduğu məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin yeni təyin olunmuş mədəniyyət nazirini qəbulunda etdiyi çıxışa geniş yer verilib. Yazıda Qarabağın incisi kimi təqdim edilən Şuşa şəhərinin 1992-ci ildə Ermənistan tərəfindən işğal edildiyi və ötən il noyabrın 8-də düşmən tapdağından azad olunduğu diqqətə çatdırılıb. Bu qədim şəhərin Azərbaycan tarixində və mədəniyyətində rəmzi məna daşıdığı, tanınmış azərbaycanlı musiqiçilərin və görkəmli elm-mədəniyyət xadimlərinin yurdu olduğunu vurğulayan müəllif qeyd edib ki, Azərbaycan Prezidenti erməni işğalı dövründə Şuşaya vurulmuş maddi-mənəvi ziyandan da bəhs edib.

Məqalədə yazılıb: "Azərbaycan dövlətinin başçısı Şuşada yaşayış fondunun, tarixi abidələrin təftişinin aparılması, vurulmuş ziyanın dəqiq hesablanması və restavrasiya işlərinə başlanması barədə göstəriş verib. Prezident, eyni zamanda, şəhərin ilkin və tarixi simasının bərpa edilməli olduğunu da vurğulayıb".

Sonda diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev Şuşa şəhərində musiqi festivalı və poeziya günlərinin keçirilməsinə dair tapşırıqlar verib.

# Ərdəbildəki şirkətlər Qarabağın bərpasında iştirak etməyə hazırdır



Ərdəbildə fəaliyyəyt göstərən şirkətlər işğaldan azad edilən Qarabağın bərpasında iştirak etməyə hazırdır.

AZƏRTAC xəbər verir ki, bu sözləri Ərdəbil Ticarət, Sənaye və Mədənlər Palatasının sədri Hüseyn Pirmüəzzin deyib. O bildirib ki, yaxın vaxtlarda İran və Azərbaycan arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Komissiyanın iclası keçiriləcək. Qarabağın bərpasında iştirak etmək istəyən şirkətlərin siyahısı və hansı işləri həyata keçirəcəkləri haqqında məlumat komissiyaya təqdim ediləcək.

H.Pirmüəzzin diqqətə çatdırıb ki, kənd təsərrüfatı məhsullarının becərilməsi və istehsalında Ərdəbil şirkətləri böyük təcrübəyə malikdir. Uzun müddət istifadəsiz qalan torpaqların becərilməsi tərəflər üçün faydalı olar və bölgənin kənd təsərrüfatı sektoru dirçələr.

Palata sədri birgə investisiya qoyuluşuna toxunub və qeyd edib ki, investisiya yatırmaq istəyən şirkət və qruplar komissiyaya təqdim olunmalı və müzakirə edilərək qərar verilməlidir.

# Müdafiə Nazirliyi müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyənlərə müraciət edib

Müdafiə Nazirliyi müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyən şəxslərə müraciət edib.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunda müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan ən azı ümumi orta təhsilli, qanunla müəyyənləşdirilmiş müddətli həqiqi hərbi xidmətini başa vurmuş, 30 yaşınadək hərbi vəzifəlilər yanvarın 11-dən 30-dək müvafiq sənədlərlə birliklərin, qoşun növlərinin və hərbi hissələrin qərargahlarında fəaliyyət göstərən qəbul komissiyalarına müraciət edə bilərlər.

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar qəbul komissiyaları tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyənləşdirilməsi məqsədilə Müdafiə Nazirliyinin tibb müəssisələrinə göndərilir. Hərbi Həkim Komissiyalarının qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılırlar.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq, liderlik və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər kursa qəbul edilirlər.

Kursu müvəffəqiyyətlə başa vuran şəxslərlə üç il müddətinə bağlaşma imzalanır və onlar ixtisaslarına uyğun müvafiq vəzifələrə təyin olunurlar.

Namizədlər qəbul komissiyalarına müraciət edərkən təqdim etməli olduqları sənədlərin siyahısı Müdafiə Nazirliyinin saytında yerləşdirilib.

Müraciətlər yanvarın 11-dən 30-dək hər gün (bazar günləri istisna olmaqla) saat 09.00-dan 18.00-dək birliklərin, qoşun növlərinin və hərbi hissələrin qərargahlarında fəaliyyət göstərən müvafiq komissiyalarda qəbul edilir.

Qeyd edək ki, müddətdən artıq həqiqi hərbi xidmətdən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 156-cı maddəsinin "e" bəndinə (xidməti uyğunsuzluğa görə) müvafiq olaraq ehtiyata buraxılmış hərbi qulluqçuların və məhkumluğunun ödənilməsindən asılı olmayaraq məhkum edilmiş hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etməmələri xahiş olunur.

# Saatlı Rayon Mərkəzi Xəstəxanasının baş həkiminin qanunsuz hərəkətləri ilə bağlı cinayət işi məhkəməyə göndərilib

Saatlı Rayon Mərkəzi Xəstəxanasının direktoru Səidə Şahpələngovanın vəzifə səlahiyyətlərindən sui-istifadə edərək qanunsuz hərəkətlərə yol verməsi, dövlət əmlakını mənimsəməsi, həkim və tibb işçilərinə işə gəlmədikləri halda əməkhaqqı verməsi faktları üzrə Saatlı Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işinin istintaqı yekunlaşıb.

Saatlı Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, istintaqla Səidə Şahpələngovanın Fətəlikənd kənd sahə xəstəxanasının sabiq baş həkimi Cəməsəddin Əhmədov, həmin xəstəxanada həkim stomatoloq vəzifəsinə işə qəbul olunmuş oğlu Fuad Nəbiyev və baş həkim Səidə Cəlilova ilə xeyli miqdarda pul vəsaitini mənimsənilməsinə dair razılığa gələrək qabaqcadan əlbir olub bir qrup şəxs halında, öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq Cəməsəddin Əhmədova və Səidə Cəlilovaya qanunsuz göstəriş verməklə tərtib olunmuş davamiyyət tabellərində Fuad Nəbiyevə əməkhaqqı hesablanmasına dair bilə-bilə yalan məlumatlar daxil etməklə vəzifə saxtakarlığına yol verərək 13 min 706 manat məbləğində pul vəsaitini mənimsəməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Bundan başqa, Saatlı rayonunun Qara Nuru kənd həkim məntəqəsinin sabiq müdiri İbrahiməjdər Hüseynovun tibb bacısı Aytac Əhədova tərəfindən faktiki olaraq görülməyən işlərə görə qanunsuz olaraq əməkhaqqı köçürülməsi yolu ilə 2646 manat məbləğdə pul vəsaitlərini öz qulluq mövqeyindən istifadə edərək mənimsəməsinə, Səidə Şahpələngovanın isə belə nəticənin baş verə biləcəyi imkanını görməyərək səhlənkarlıq etməsinə şübhələr üçün əsaslar müəyyən olunub.

İş üzrə toplanmış sübutlar əsasında Səidə Şahpələngovaya Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə), 313-cü (vəzifə saxtakarlığı) və 314.1-ci (səhlənkarlıq), Cəməsəddin Əhmədov, Səidə Cəlilova və İbrahiməjdər Hüseynova isə Cinayət Məcəlləsinin 308.1-ci və 313-cü maddələri ilə ittiham elan edilib. Cinayət işi aidiyyəti üzrə baxılması üçün məhkəməyə göndərilib.

Törədilmiş cinayətlər nəticəsində dəymiş maddi ziyan ödənilib.

# "Azərxalça" ASC-nin idarə heyəti sədrinin qanunsuz əməlləri ifşa edilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tövsiyə və tapşırıqlarına uyğun olaraq, dövlət idarəçiliyində maliyyə şəffaflığının təmin edilməsi istiqamətində qarşıya çıxan korrupsiya hallarına qarşı mübarizə tədbirləri davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, belə tədbirlərdən biri kimi, "Azərxalça" ASC-nin İdarə heyətinin sədri vəzifəsində işləmiş Muradov Vidadi Aydın oğlunun qanunsuz əməlləri ilə əlaqədar Baş Prokurorluğa daxil olmuş materiallar əsasında aparılmış araşdırma nəticəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Aparılmış istintaq tədbirləri ilə Vidadi Muradovun həmin vəzifədə işləyərkən 2016-cı il dekabrın 9-dan 2019-cu il dekabrın 31-dək olan müddətdə digər şəxslərlə qabaqcadan əlbir olaraq "Azərxalça" ASC-yə məxsus xalça istehsalı üçün nəzərdə tutulan ipin formal müqavilələrin bağlanması yolu ilə alqı-satqısı məqsədilə bir neçə hüquqi şəxsə məxsus bank hesablarına ümumilikdə 3 milyon 435 min manat məbləğdə pul vəsaitinin köçürülməsinə və həmin məbləğin 1 milyon 149 min manat olan hissəsinin nağdlaşdırılmaqla mənimsəməsinə, hərəkətləri ilə cəmiyyətin qanunla qorunan əmlak və sair hüquqlarına, habelə qanuni mənafelərinə mühüm zərər vurmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə etməsinə, eləcə də rəsmi sənədlərə bilə-bilə yalan məlumatları daxil etməklə vəzifə saxtakarlığı törətməsinə əsaslı şübhələr yaranıb.

Bundan başqa, Vidadi Muradovun 2017-ci il dekabrın 20-dən 2019-cu il fevralın 18-dək olan müddətdə cəmiyyətə məxsus müxtəlif ölçülü xalçaları təsisçisi olduğu "Azər-İlmə" MMC-yə ucuz qiymətə satılmasına nail olmaqla 339 min 427 manat məbləğində əmlakı mənimsəyərək "Azərxalça" ASC-nin qanuni mənafelərinə təkrarən mühüm zərər vurmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə etməsinə əsaslı şübhələr yaranıb.

Habelə Vidadi Muradovun 2019-cu il martın 28-də xarici bazarlarda 800 min ABŞ dolları, həmin dövrün rəsmi məzənnəsi ilə 1 milyon 360 min manat təşkil edən yun təmizləmə xəttinin alınmasının mümkün olmasına və həmin alqı-satqının rəhbəri olduğu cəmiyyət üçün maddi baxımdan daha səmərəli olmasına baxmayaraq, istintaqla şəxsiyyətləri araşdırılan qeyriləri ilə qabaqcadan əlbir olaraq "Azərxalça" ASC-yə məxsus olan əmlakı israf etməklə talamaq məqsədilə cəmiyyət üçün maddi cəhətdən daha ağır şərtlərlə, Almaniya Federativ Respublikası ərazisində fəaliyyət göstərən şirkətlərdən biri ilə dəyəri 5 milyon 314 min avro (10 milyon 167 min manat) təşkil edən podrat müqaviləsini bağlayıb, müqavilənin tərkib hissəsi kimi yun təmizləmə xəttinin alınması üçün 1 milyon 800 min avro (3 milyon 444 min manat) məbləğində pulun "Azərxalça" ASC-nin bank hesabından şirkətin bank hesabına ödənilməsinə nail olmaqla, "Azərxalça" ASC-yə məxsus cəmi 2 milyon 84 min manat məbləğində əmlakı israf etməsinə, həmin hərəkətləri ilə təkrarən vəzifə səlahiyyətlərindən sui-istifadə etməsinə əsaslı şübhələr yaranıb.

Yanvarın 9-da Muradov Vidadi Aydın oğluna Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179.4-cü (mənimsəmə xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilib, rayon məhkəməsinin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Hazırda "Azərxalça" ASC-nin vəzifəli şəxsləri tərəfindən törədilmiş digər cinayətlərdə hər hansı formada iştirak etmiş şəxslərin müəyyənləşdirilməsi, habelə cəmiyyətə dəymiş maddi ziyanın ödənilməsi istiqamətində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən əməliyyat-istintaq tədbirləri davam etdirilir.


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərmətbuatyayımı" ASC | (012) 440-46-94, (012) 441-19-91 |
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Beynəlxalq aləm



## Aşağı gəlirli ölkələr vaksin problemi ilə qarşılaşıb

Hazırda dünyanın 42 ölkəsində yeni tipli koronavirus infeksiyasına qarşı peyvənd kampaniyaları başlayıb. Vaksinasiya təhlükəsiz və effektiv dərmanlarla həyata keçirilir. Söhbət gəlir səviyyəsi yüksək olan 36 dövlətdən və orta gəlirli 6 ölkədən gedir.

Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Qebreyesus məlumat verib.

"Biz problemi aydın şəkildə görürük - aşağı gəlirli və əksəriyyəti orta səviyyəli ölkələrdə vaksin yoxdur. Biz bu problemi COVAX və ACT-Accelerator proqramları vasitəsilə həll etməliyik və edə bilərik", - deyə ÜST-nın rəhbəri bildirib.

Qebreyesus ÜST-nin yaxın günlərdə yeni koronavirusun mənşəyinin müəyyən edilməsi ilə məşğul olmalı olan beynəlxalq ekspertlər qrupunun Pekinə səfər müddəti barədə Çin hakimiyyətindən məlumat almağa ümid etdiyini də söyləyib.

## İraqda beynəlxalq koalisiya konvoyuna hücum edildi



Bağdadın cənub-qərbində naməlum şəxslər ABŞ-ın başçılıq etdiyi beynəlxalq koalisiya qüvvələrinin avtomobil karvanı yolunda partlayış təşkil ediblər.

Bağdadın Polis Departamentinin nümayəndəsi, leytenant Hatim Cabiri "Anadolu" agentliyinə bildirib ki, partlayış Yusifiyyə rayonunda baş verib.

Partlayıcı qurğu koalisiya qüvvələrinin avadanlığı daşınan yük maşınları konvoyunun hərəkəti yolunda qoyulmuşdur. Hadisə nəticəsində xəsarət alan olmayıb.

Faktla bağlı araşdırma başlayıb. Cinayətkarların axtarışı aparılır. Son üç həftə ərzində İraqda koalisiya qüvvələrinin yük maşını karvanlarına 10 hücum edilib.

## Hindistanda xəstəxanada 10 uşaq həlak oldu



Hindistanın qərbindəki Maharaştra ştatında perinatal xəstəxanasının reanimasiya və intensiv terapiya şöbəsində baş vermiş yanğın nəticəsində 10 uşaq həlak olub. Bu barədə TASS agentliyi xəbər verir. Hindistan polisinin məlumatına görə, faciəli hadisə Bhandara şəhərindəki xəstəxanaların birində yeni doğulmuş körpələrə qulluq şöbəsində baş verib.

1-3 aylıq yeddi uşağı xilas etmək mümkün olub.

Yanğının səbəbi kimi qısa qapanma bildirilir.

## Əfqanıstanda partlayış törədildi



Əfqanıstanın Baqlan vilayətində bomba partlayışı nəticəsində iki nəfər həlak olub. Bu barədə "Assoşieyted Press" agentliyi xəbər verir.

Məlumata görə, hadisə Puli-Humri rayonunda baş verib. Partlayıcı qurğu yolun kənarında quraşdırılıb və polis avtomobilinin hərəkəti zamanı işə salınıb.

Nəticədə iki mülki şəxs həlak olub, bir polis və dörd nəfər dinc sakin yaralanıb.

Hələlik heç bir təşkilat partlayışa görə məsuliyyəti öz üzərinə götürməyib.

## Özbəkistanda Daş dövrünə aid bir neçə nadir tapıntı aşkarlanıb



Özbəkistan arxeoloqları Çatkal və Kurama sıra dağlarının ətəklərində Daş dövrünə aid bir neçə nadir tapıntı aşkar ediblər. Anqren oazisinin Yangiabad və Karabax çaylarının yuxarı axarında Daş dövrünə aid 2 emalatxana, 2 yaşayış məskəni, qəbirlər kompleksi və qayaüstü rəsmlər tapılıb.

Daş dövrü emalatxanalarındakı tapıntılar göstərir ki, bu abidələrin xronologiyası orta və son Paleolit arasındakı dövrə aiddir. Yaşayış məskənlərindən və emalatxanalardan aşkarlanmış əşyalar arasında Özbəkistanda Paleolit dövrünə aid indiyədək rast gəlinməyən daş həmayıl var ki, bu da təkcə Özbəkistan üçün yox, bütün dünya üçün böyük maraq kəsb edir. Qayaüstü rəsmlər və kurqanlar bu ərazilərdə müxtəlif tarixi dövrlərdə insanların sıx yaşadıqlarını göstərir.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin kollektivi Ali Məhkəmənin sabiq hakimi

**ŞAHMURAD HİDAYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Göyçaydan Mehdi Səlimzadə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədova əzizi

**SÜDABƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azneftemaş" ASC-nin prezidenti Şahmar Vəliyev Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədova əzizi

**SÜDABƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 4948
Sifariş 35
Qiyməti 40 qəpik